Nəticələr: Beləliklə, yüksək təzyıqlı düzaxınlı sıyırtmələrının təkamül prosesinin təhlili nəticəsində müəyyən edilmişdir ki, onların etibarlığının və istismar mühitinin artırılması istiqamətində aparılan elmi, elmi-praktiki işlərin 65-70% konstruktiv təkmilləşdirilmələrlə, 21-25 %-də kipləndirmə effektinin yüksəldilməsi və 10%-ə qədəri isə material seçiminə həsr edilmişdirlər.
Düzaxınlı siyirtmələrin təkamül you və müasir vəziyyəti bu avadanlıqlarda təkmilləşdirmə işlərinin istiqamətləndirilməsində təkcə konstruktiv quruluşarın aradan qaldırılması ilə deyil, eyni zamanda istismar şəraiti nəzərə alınmaqla aşağı və yuxarı temperturlarda yeyilməyə davamlı olmaq materialların seçimi ilə uyğunlaşdırılmalıdır.

ƏDƏBİYYAT

1. Саламатов Ю.П. Система законов развития техники (основы теории развития

технических систем). Красноярск РФ: Institute of Innovative Design, 1996.-136 с.
2. Курги Э.Э. Закономерности развития технических систем ЗРТС-96. ТРИЗ. Саммит – Спб.: 2006. htt://www.metodolog.ru/0081300813.html
3. Фейгенсон Н.Б. S-кривая – некоторые особенности третьего этапа развития систем //Журнал ТРИЗ, 2005, №1 (14) – С. 55-59.
4. S.Litvin, M.Gersman. Parallel Evolutionary Lines Application for Technology Forecast //Методы прогнозирования на основе ТРИЗ. Сб. науч. тр. «Библиотека Саммита разработчиков ТРИЗ». Вып.3. Спб.: 2010. – 280 с.
5. Бабаев С.Г., Кершенбаум В.Я., Габибов И.А. Эволюция качества трибосопряжений нефтегазовой техники. – Москва-Баку: НИНГ, 2018. – 526 с.
6. Бабаев С.Г., Кершенбаум В.Я., Габибов И.А. Эволюция надежности в комплексах «качество-конкурентоспособность» нефтепромыслового оборудования. Москва-Баку: НИНГ, 2020 – 416 с.
7. Бабаев С.Г., Зильберман Л.И. Повышение долговечности фонтанной арматуры. Тематический научно-технический обзор. М.: ВНИИОЭНГ, 1970. – 72 с.
8. Бабаев С.Г., Керимов В.И. Износостойкость затвора задвижек с уплотнением типа «металл-металл». Saarbrücken, Deutschland, LAP LAMBERT Academic Pablisching, 2015. – 101 с.
9. Бабаев С.Г., Абасов В.А., Гафаров В.В. и др. Исследование стойкости уплотнительных поверхностей узлов затвора задвижек фонтанных арматур в условиях пульсаций давлений. Ученые записки НИИ «Геотехнологические проблемы нефти, газа и химия». Том V. Баку: Элм, 2004. – с. 194 – 202.
10. Ахмедов Б.М., Рамазанов Р.А., Кахраманов Х.Т.,Гурбанов А.Г. К вопросу повышения надежности фонтанной арматуры. М.: Химическое и нефтяное машиностроение, 1971, №8. – с. 33-34.
11. Бабаев С.Г., Керимов В.И. Рекомендации по повышению работоспособности узла затвора задвижек фонтанных арматур. Ученые записки НИИ «Геотехнологические проблемы нефти, газа и химия». Том X. Баку: Nurlan, 2010. – с. 258 – 267.
12. Кахраманов Х.Т.,Подшибякина А.Л. Коррозионная стойкость сталей нефтепромысловой арматуры. М.: Химическое и нефтяное машиностроение, 1982, №2. – с. 23-24.
13. Бабаев С.Г., Керимов В.И. Новые конструкции узла затвора прямоточных задвижек высокого давления. Сборник статей научно – практической конференции «ХАЗАРНЕФТГАЗЯТАГ - 2012». Баку: 2013. – С. 127-130.
14. Керимов З.Г., Ахадов М.А. Оптимизация конструкции узла уплотнения прямоточных задвижек высокого давления. Баку: ИВУЗ «Нефть и газ», 1990, №5. – С. 82-86.
15. Мамедов Ф.Г., Этин З.М., Агавердиева Э.Р. Химическое никелирование деталей задвижек фонтанной арматуры, работающей в агрессивной сероводородосодержащей среде. М.: Химическое и нефтяное машиностроение, 1980, №2. С. 27-28.
16. Мустафаев С.М., Касымов С.А., Салахова Л.Р. Повышение задиростойкости деталей уплотняющего узла задвижек фонтанных арматур методом карбонитрации. Баку: ИВУЗ Нефть и газ, 1992, №1-2. – С. 87-90.
17. Фаталиев Н.С., Сафаров Р.С., Алиева А.И. Применение дисульфидмолибденового покрытия деталей затвора задвижек устьевого оборудования. Экспресс-информация. Серия ХМ-3. М.: ЦИНТИхимнефтемаш, 1981, №4. – 3 с.
18. Владимиров А.И., Кершенбаум В.Я. Конкурентоспособность на фоне кризиса. Нефтегазовая техника. М.: «Национальный институт нефти и газа», 2009. – 696 с.
19. Отчет НИР по теме №3758-76-117 «Исследование по созданию устьевого эксплуатационного оборудования на $P_р$ 100-150 МПа (1000-1500 кг/см^2)». Фонд АзИНМАШа, 1977. – 48 с.

20. Кахраманов Х.Т. Выбор материалов для устьевого НПО, предназначенного для работы под высоким давлением в средах, содержащих сероводород. Материалы конференции, посвященной 75-летию АзИНМАШа. Баку: «Nurlan», 2005. – С. 183-189.
21. Бабаев С.Г., Керимов В.И. Результаты повышения надежности прямоточных задвижек высокого давления, применяемых в фонтанной и трубопроводных арматурах. М.: «Машиностроитель», 2012, №4. – С. 20-24.
22. Патент Азерб. Респ. İ 2008 0079. Прямоточная задвижка высокого давления. /Бабаев С.Г., Керимова Л.С., Керимов В.И. //Гос. регистрация: 30.04.2008.
23. Патент Азерб. Респ. İ 2008 0080. Прямоточная задвижка высокого давления. /Бабаев С.Г., Керимова Л.С., Керимов В.И. //Гос. регистрация: 30.04.2008.
24. Кадиров А.Д. О возможности взаимной притирки седла и шибера прямоточной задвижки. Материалы конференции, посвященной 75-летию АзИНМАШа. Баку: «Nurlan», 2005. – С. 331-333.
25. Патент Азерб. Респ. İ 2006 0150. Прямоточная задвижка высокого давления. /Бабаев С.Г., Керимов В.И., Гочуев Х.Ф. //Гос. регистрация: 25.12.2006.
26. Aslanov C.N. Eyvazova Z.E. Bayramov F.H.Hüseyinli Z.S. Maşın qurğu və avadanlıqların layihələndirilməsi. Dərs vəsaiti.Bakı.2021

HIGH PRESSURE HELL DRAWING ANALYSIS OF THE EVOLUTION PROCESS

[1]Camaladdin Aslanov, [2]Zohra Abiyeva

[1]Associate Professor, Department of “Oil and Gas Equipment”, Azerbaijan State University of Oil and Industry, Doctor of philosophy in Engineering, Azerbaijan. E-mail: tribo72@mail.ru

[2]Assistant, Department of “Engineering and Computer Graphics”, Azerbaijan State University of Oil and Industry, Azerbaijan. E-mail: zohra.abiyeva@asoiu.edu.az

ABSTRACT

The article is devoted to the study of the patterns of evolutionary stages in the development of direct Christmas tree valves. It was determined that the modern level of constructive performance of direct zhadvizhek reaches its ideal level. However, in order to bring them up to date, it is necessary to pay attention to the use of new materials. It is important that they are made of lightweight materials that are corrosion resistant at low or high temperatures.
Keywords: Christmas tree, straight valve, evolution, wear.

https://doi.org/10.36962/ETM0602202140

FLİKKER-SƏS SPEKTROSKOPİYASI METODUNDAN İSTİFADƏ EDƏRƏK MÜVƏQQƏTİ STOXASTİK SIRALARIN GÜC SPEKTRİNİN ÇOXMƏRHƏLƏLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Rəbiyyə Nəcəfquliyeva

Baş müəllim, "Mühəndis və kompüter qrafikası", Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan.

E-mail: rabiya.nadjafkuliyeva@gmail.com

XÜLASƏ

Furyenin korrelyasiya funksiyasının çevrilməsinə əsaslanan müvəqqəti stoxastik sıraların spektral analizi dalğalı dinamiki proseslərin tədqiqində ən çox istifadə olunan fenomenoloji yanaşmalardan birini təsvir edir. İşdə sıranın qeyri-müntəzəm elementləri üçün spektroskopiyanın flikker-səs metodundan istifadə edilərək səsli qeyri-stasionar müvəqqəti sıranın çox mərhələli spektral qiymətlərinin hesablama proseduru təklif olunur. Hesablama qaz lift kompressor stansiyasında istifadə olunan istilikdəyişdirici aparatda maksimum gərginliyin hesablanma nümunəsində həyata keçirilmişdir. Hesablamanın nəticələri aparat borularının periodik aerodinamiki qüvvələrindən həyəcanlanan və xüsusi törəmələrin xətti diferensial tənliyi ilə modelləşdirilmiş ədədi həllinin nəticələri ilə müqayisə olunur.

Açar sözlər: istilikdəyişdirici, vibrasiya, flikker-səs spektroskopiyası, çoxmərhələli spektral qiymətləndirmə.

Giriş; Kvadratik spektral qiymətləndirmələrin ən ümumi sinfi özünün xüsusi göstəricilərinin qiymət probleminin həllindən istifadə yolu ilə əldə edilir, bunun əsasında bu qiymətləndirmələr ortoqonal spektral qiymətləndirmələrin cəmi (K) kimi təqdim edilə bilər. İlk olaraq spektral qiymətləndirmələrin belə sinfi çox mərhələli spektral analiz adı altında Tomson [1] tərəfindən təklif olunmuşdur (multiple taper spectral analysis MTSA). Bu taperlərin hamısı cüt ortoqonaldırlar və spektrin yan ləçəklərində sızmasının qarşısını alaraq, az qarışmada və variasiyanın azaldılması mənasında, xüsusilə yüksək tezlikli spektr və / və ya sürətli variasiyaya uğrayan (yüksək dəyişkənli) bir spektr üçün periodqrammanı müəyyən çox mərhələli spektral analizə gətirirlər [2].
Praktiki istifadə edilən ortoqonal taperlər çoxluğunun əsas növləri Slepian taperi [3] və Raydellə Sidorenkonun [4] sinusoidal taperləridir. Slepian taperi $[-W,W]$ tezlik intervalında spektral $H_0(f)$ pəncərəsinin konsentrasiya münasibətini $\Delta t = 1$ zamanına görə diskretizasiyasını bütöv intervalda $[-1/2,1/2]$ uyğun spektral pəncərəsinə görə maksimumlaşdırır. Lakin, bu taperlər analoji təsvirə malik deyillər, onların ədədi tətbiqi üçün bir alqoritm hazırlanmışdır [5]. Sinusoidal taperlər faha əlverişli sayılırlar, onlar N- tədqiq olunan stasionar prosesin $O\left(\frac{1}{N}\right)$ -ə qədər dəqiqliyinə və sadə analitik formaya malikdirlər, minimum qarışmanın taperlərinə uyğun gəlirlər (minimal bias-MB). Bundan əlavə sinusoidal taperlər zolağının effektiv eni K-nın böyüməsi ilə artır və $(K+1)/(N+1)$ zolağının nominal en tezliyi ilə uyğun gəlir, harada ki, Slepian taperləri üçün tezlik zolağının eni $NW = 4$ K-nın böyüməsi ilə K=4-dən başlayaraq azalır [6].

Bu şərtlər üzündən bu işdə sinusoidal taperlərə üstünlük verilir. Lakin, sin-taperlərin multi-taper qiymətlərinin qurulması zamanı, spektrin konsentrasiyasının olduğu $2W$ pəncərəsinin eni göstərilmədiyi üçün, biz iş [6]-da təklif olunmuş $W=(K+1)/\{2(N+1)\}$ qiymətdən istifadə edirik, burada W bilərək, K taperinin maksimum qiymətini tapmaq olar. W-ni tapmaq üçün flikker-səs spektroskopiyası metodu üzrə spektral sıxlığın qurulmasından istifadə edirik [7, 8].

Tədqiqat metodu: $x_1,...,x_N \equiv \{x_k\}_1^N$ -verilmiş qeyri-stasionar müvəqqəti sıra olsun. Azaltmadan sonra (trendləri çıxmaqla) biz fluktuasiya (müşahidə oluna bilən fiziki kəmiyyətlərin orta kəmiyyətlərdən kənara çıxması) sırasını alırıq

$$X_1,...,X_N \equiv \{X_k\}_1^N. \tag{1}$$

Müvəqqəti sıranı $\{x_k\}_1^N$ ilkin lokal approsimaksiya edən trendin qurulması üçün fraktal fluktuasiya metodunda işlədilən prosedurdan istifadə etmək olar (MFFA) [9,10]. Bundan sonra biz düşünəcəyik ki, $\{X_k\}_1^N$, $X_k=X(t_k)$, $t_k=k\cdot\Delta t$ $(k=1,...,N)$ sırası, $N=\mathrm{int}(T/\Delta t)$ - stasionar prosesinin Δt addımı ilə $[0,T]$-də müəyyən olunmuş, sıfır ortalama $<X(t)>=0$, kovariasiya funksiyası $\psi(s,t)$ ilə və yalnız t zamanının $\tau=s-t$ çevrilməsindən asılı olan diskret realizasiyasıdır.

Əgər (3) düsturu ilə müəyyən olunmuş $\{X_k\}_1^N$ ilkin sıra üçün $<X(t)>=m^*\neq 0$ olarsa, onda $\tilde{X}(t)=X(t)-m^*$ dəyişdikdən sonra sıfır ortalama $<\tilde{X}(t)>=0$ ilə , elə həmin kovarasiya funksiyalı $\psi(s,t)$ mərkəzləşmiş stasionar cərgə $\{\tilde{X}_k\}_{k=1}^N$ alırıq. Yazılışın sadələşdirirlməsi üçün bundan sonra $\{\tilde{X}_k\}$ cərgəsi əvvəldə olduğu kimi $\{X_k\}$ ilə işarə olunacaq.

Güc spektri (ikinci cərgənin spektri) və ya daha bir adı olan spektral funksiya sıxlığı (spectral density function - SDF) – Furyenin avtokovariasiya çevrilməsi kimi təyin olunur $\psi(\tau)=<X(t)X(t+\tau)>$. $\psi(\tau)$ və ikinci cərgənin fərq momenti $\Phi^2(\tau)=<|X(t)-X(t+\tau)|^2>$ hesablanmasına əsasən təxmin edilir ki, $f\le f^*$ $(f^*=f_{max}, f_{max}={}^1/_{\Delta t})$, $\tau\le\tau^*(\tau^*={}^T/_4)$, burada f - tezlikdir, τ -müvəqqəti gecikmə parametridir.

$S(f)=S_c(f)$ stasionar siqnal olub, burada $S_c(f)$ -avtokorrelyasiya funksiyasından Furye çevrilməsinin kosinusudur. Diskret halda $S_c(f)$ "eksperimental" güc spektri trapesiya metodu ilə hesablanır.

$$S_c(f)=\frac{1}{\Delta t}S_c(q), \tag{2}$$

$$S_c(q)=\psi(0)+\psi\left(\frac{M}{2}\right)(-1)^q+2\sum_{m=1}^{\frac{M}{2}-1}\psi(m)\cos\left(\frac{2\pi qm}{M}\right),\quad \left(q=0,1,...,\frac{M}{2}-1\right), \tag{3}$$

harada ki, $q=f\cdot T_M$, $T_M<T$, $T_M=M\cdot\frac{T}{N}=M\cdot\Delta t$, $f=\frac{q}{T_M}=\frac{q}{M\cdot\Delta t}=\frac{q/M}{\Delta t}$

$M=\left[\frac{T_M}{T}\cdot N\right]$ - tezlik oxunda nöqtələrin cüt ədədidir. M ədədi $\frac{4}{3}\le M\le N$ asılılığını ödəməlidir. İstənilən $m_\tau=[\tau/\Delta t]$ və $N=[T/\Delta t]$ üçün «eksperimental" avtokorrelyator aşağıdakı düsturla hesablanır:

$$\psi(m_\tau)=\frac{1}{N-m_\tau}\sum_{k=1}^{N-m_\tau}X(k)X(k+m_\tau)\quad (m_\tau=0,1,\ldots,M-1) \tag{4}$$

İş [11]-dən məlum olduğu kimi, güc spektri $S(f)$ 2π periodu ilə f -in mənfi olmayan cüt funksiyasıdır. $S(f)$ funksiyası çütlüyündən və ($S(f)=S(-f)$, $S(f+2\pi)=S(f)$) alınır ki, onun müəyyənləşdirilməsində əsas oblast kimi $[0,\pi]$ kəsiyi götürülə bilər.

$X(t)$ siqnalının tərkib elementlərini $X_R(t)$ və $X_S(t)$- dən uyğun olaraq aşağı tezlikli (müntəzəm) də yuxarı tezlikli (sinqulyar) təşkiledicilərini işarə edək. Yuxarı tezlikli təşkiledicilər diffuziya tənliyinin diffuziya əmsalı ilə həlli χ $\frac{\partial X}{\partial\tau}=\chi\frac{\partial^2X}{\partial t^2}$ analogiyası üzrə qurulan "relaksasiya" proseduruna əsaslanmışdır [7], hansı ki, fərq tənliyi şəklində verilir $\frac{X_k^{j+1}-X_k^j}{\Delta\tau}=\chi\frac{X_{k+1}^j-2X_k^j+X_{k-1}^j}{(\Delta t)^2}$, burada Δt, $\Delta\tau$ -relaksasiya və zaman üzrə addımlardır.

$\omega=\chi\Delta t/(\Delta t)^2$ göstəricisini daxil etməklə, aşağıdakı tənliyi alırıq:

$$X_k^{j+1}=\omega X_{k+1}^j+\omega X_{k-1}^j+(1-2\omega)X_k^j\ . \tag{5}$$

Fərq sxemlərinin dayanıqlıq nəzəriyyəsindən [12] məlumdur ki, verilmiş fərq sxemi $\omega<\frac{1}{2}$ olduqda mütləq dayanıqlı olacaq. Fərz edək ki, $\Delta\tau=\Delta t=1$, ardıcıl olaraq $\chi=\omega$ olacaqdır. (5) tənliyindən hamarlaşdırma proseduru kimi istifadə etmək üçün sərhəd şərtlərini təyin etmək lazımdır. Verilən halda bu şərtlər belə verilir. Müşahidələrin seçilməsi üçün hamarlaşma N nöqtəsindən aparılarsa. onda hər bir hamarlaşma intervalında kənar qiymətlər $k=1$ və $k=N$ olduqda aşağıdakı düsturlarla hesablanacaqdır:

$$X_1^{j+1}=(1-2\omega)X_1^0+2\omega X_2^j\ ,\qquad X_N^{j+1}=(1-2\omega)X_N^j+2\omega X_{N-1}^j$$

Bu tənliklərin iterasiyası, yəni X_k^{j+1} siqnal göstəricilərinin $(j+1)$-м relaksasiya addımında X_k^j göstərisicini ilə hesablanması ($j=0$ olduqda $X(t)$ siqnalının özü götürülür) aşağıtezlikli təşkiledicini $X_R(t)$ almağa imkan verir. Onu ilkin $X(t)$ siqnalından çıxmaqla yüksəktezlikli təşkiledicini alırıq $X_S(t)=X(t)-X_R(t)$. Hesablamalarda ω üçün $1/2$-dən kiçik istənilən müsbət ədədi qəbul etmək olar.

Eksperimental spektrin $S(f)$ sinqulyar təşkildeicisi $S_S(f)$ $\psi(t)$-nı avtokorrelyator $\psi_S(\tau)$-la əvəzləyərək (2)-(3) düsturlarında hesablamaqla aşağıdakı düstur üzrə təyin etmək olar [8]:

$$\psi_S(m_\tau)=\frac{1}{N-m_\tau}\sum_{k=1}^{N-m_\tau}\left[X_S(k)X_S(k+m_\tau)+X_R(k)X_S(k+m_\tau)+X_S(k)X_R(k+m_\tau)\right],\quad (m_\tau=0,1,\ldots,M-1) \tag{6}$$

burada $X_S(t)$, $X_R(t)$ – siqnalın sinqulyar (qeyri-müntəzəm) və müntəzəm təşkiledicilərdir.

$S(f)$ güc spektrinin sinqulyar təşkiledicisini $S_S(f)$ praktiki məqsədlər üçün interpolyasiya düsturunun [7] köməyi ilə qiymətləndirmək rahatdır:

$$S_S(f) \approx \frac{S_S(0)}{1+(2\pi f T_0)^{n_0}} \tag{7}$$

$S_S(0)$ parametrinin təxmini qiyməti kimi $S(f)$-in funksiya qrafikində ikiloqarifmli koordinatda f_1^* birinci yüksək tezliyə tərəf irəliləyən aşağı tezlikli sahəni ayırmaq olar və $S(f_1^*-\varepsilon)$ -u $S_S(0)$-ın qiyməti kimi qəbul etmək olar, burada ε - kiçik müsbət ədəddir. (7) düsturunda n_0, T_0 parametrləri və $S_S(0)$ parametrinin qiymətinin dəqiqləşdirilməsi ən kiçik kvadratlar metodunun köməyi ilə [13], (16) modeli ilə təyin olunmuş $S_c(f)$-in qiyməti ilə, (2)-(3) (65) düsturları ilə hesablanmış eksperimental spektr $S_c^э(f)$-lə razılaşdırmaqla hesablanır.

Qoy $X_1,...,X_N$ N uzunluqlu sıfır ortalama ilə maddi-qiymətli stasionar prosesin və $S(f)$ spektral sıxlığının funksiyası (spectral density function – sdf) seqmenti olsun və ya eyni hal f tezliyində $\{X_R\}$ sırasının güc spektrində olsun [11]. Bundan sonra götürəcəyik ki, $\{X_R\}_1^N$ sırası $X_S(t)$ stasionar sırasının qeyri-müntəzəm təşkiledicisinin ilkin qeyri-stasionar sırasının azalan dikretizasiyasıdır. Prosesin variasiyası vahid zamanda enerji ilə təyin olunan güc anlayışı ilə sıx bağlı olduğundan, $S(f)$-i həm də güçün spektral sıxlığının funksiyası adlandırırlar (power spectral density function – PSDF), həm də $|G(f)|^2$ $G(f)=\sum_{t=1}^{N} X_t \exp(-i2\pi ft)$ olduğu halda, onu spektral enerji sıxlığının funksiyası da adlandırırlar (energy spectral density function - ESDF) [2]. Qeyd olunmuş $f, 0 \le f \le \frac{1}{2}$ tezliyi üçün $Z_t = X_t \exp(-i2\pi ft)$ qiymətləndirək. Kvadrat spektral qiymət $\hat{S}(f)=\sum_{S=1}^{N}\sum_{t=1}^{N} Z_S^* Q_{S,t} Z_t$ adlanır, burada * kompleks uzlaşmadır və Q çəki matrisinin $N \times N$ (s,t)-nci elementidir.

Spektral qiymətləndirmə mənfi olmasın deyə, güman edəcəyik ki, Q- yarı təyin olunmuş müsbətdir. İstənilən maddi-qiymətli, simmetrik, müsbət yarı təyin olunmuş çəki matrisi Q-nün kvadrat qiymətləndirilməsi orta spektral qiymətlərin K növü kimi yazıla bilər, burada K Q -nün matris dərəcəsidir [2]:

$$\hat{S}(f)=\frac{1}{k}\sum_{k=0}^{k-1} \hat{S}_k(f) \tag{8}$$

ilə

$$\hat{S}_k(f) \equiv \left| \sum_{t=1}^{N} h_{t,k} X_t e^{-i2\pi ft} \right|^2, \quad i=\sqrt{-1}, \tag{9}$$

burada $\{h_{t,k}\}$ $\hat{S}_k(\cdot)$ düz spektral qiymətləndirmə üçün k-nın verilənlər taperi adlanır. Güman edilir ki, bütün taperlər ortoqonaldır, yəni $\sum_{t=1}^{N} h_{t,j} \cdot h_{t,k} = 0$ hamısı üçün $j \neq k$ olur. Normallaş-

dırma şəraitində $\sum_{t=1}^{N} h_{t,k}^2 = 1$ qiyməti (8) ağ səs halında qarışıq olmur. Növün qiymətləndirilməsi (8) ilk dəfə Tomson tərəfindən təklif olunmuşdir [1], multitaper spektral qiymətləndirmə adlanır uyğun (spektral qiymətləndirmə ilə $\hat{S}^{(mt)}(\cdot)$-lə işarələnir (9)), düz spektral qiymətləndirmə adlandırılaraq (eigenspectra) $\hat{S}_k^{(mt)}(\cdot)$ ilə işarələnir ; mt - «multitaper»-in qısaldılmış şəklidir). $\hat{S}_k(f)$ qiymətləndirməsi üçün uyğun spektral pəncərə $\hat{S}\ (f)$ şəklində olub, [6] $\overline{H}(f) = \frac{1}{k}\sum_{k=0}^{k-1} H_k(f)$ kimi yazılır.

Ən geniş yayılmış ortoqonal taperlər Slepian və sinusoidal taperlərdir. Slepian taperləri [3] əsasən yan cıxıntıların yatırılmasına yönəldilir. Bu taperlərin ilk ardıcıllığı $[h_{t,0}, t = 1,...,N]$ elə seçilir ki, uyğun spektral pəncərə $H_0(f)$, $[-W,W]$ tezlikli intervalda $\int_{-W}^{W} H_0 df \Big/ \int_{-1/2}^{1/2} H_0 df = \lambda_0(N,W)$ konsentrasiya münasibətinin $2W$ enini maksimumlaşdırsın. İkinci taper ardıcıllığı birinci taper ardıcıllığının ortoqonallıq şərtində konsentrasiya münasibətini maksmumlaşdırır, bu münasibətin alınmış qiyməti $\lambda_1(N,W)$ ilə işarələnir. Üçüncü taper ardıcıllığı sonrakı ardıcıllıqlara ortoqonallıq şərtində konsentrasiya münasibətini maksmumlaşdırır və s. $2N \cdot W$ birinci λ_k ədədləri 1-ə çox yaxın olmalıdır (1-dən az qalmaqla), lakin bu yalnız $k = 0,...,2NW-2$ sırasının taperləri üçün yerinə yetirilir və ardıcıl olaraq, istifadə edilən taperlərin maksimum sayı $K = 2NW-1$ bərabərdir. Bu taperlərin sadə analitik ifadələri yoxdur, onların ədədi hesablama alqoritmi [5]-də verilmişdir.

Taperlərin iki tezliyin hamarlanması zamanı itki imkanı olmadan variasiyanı azaltmağa qadir olan tapperin başqa bir vacib növü, Raydel və Sidorenko tərəfindən təklif olunan sinusoidal taperlərdir [4]. Bunlar əsasən yan çıxıtıların əhəmiyyətsiz qarışmalarında spektr çox sürətlə dəyişmirsə, onda istifadə edilərək, ortoqonal taperlərin aşağıdakı asan hesablanan ardıcıllığını əks etdirirlər ki,

$$h_{t,k} = \sqrt{\frac{2}{N+1}} \cdot \sin\left\{\frac{(k+1)\pi t}{N+1}\right\}, \ (t = 1,...,N), \tag{10}$$

bu da dispersiyasının periodqrammla müqayisədə spektral qiymətləndirmənin azalmasına gətirir və aşağıdakı düsturla təyin edilir [2]

$$\hat{S}^{(p)}(f) \equiv \frac{\Delta t}{N}\left|\sum_{t=1}^{N} X_t \exp(-i2\pi f t\Delta t)\right|^2 \tag{11}$$

Taperləri $v_n^{(k)}$ və onların çəki əmsallarını μ_k ilə işarə edərək, spektral qiyməti (8) belə yazarıq

$$\hat{S}^{(mt)}(f) \equiv \frac{\Delta t}{N}\sum_{k=0}^{K-1}\mu_k\left|\sum_{n=1}^{N} v_n^{(k)} X_n \exp(-i2\pi f n)\right|. \tag{12}$$

$\mu_k = \frac{1}{K}$ olduqda spektral qiymətə (8) keçirik. K sinusoidal taperlərdən (22) istifadə edən spektral qiymətləndirmə (12) aşağıdakı təsvirə malikdir [4]:

$$\hat{S}^{(mt)}(f)=\sum_{k=0}^{K-1}\frac{\mu_k}{2(N+1)}\left|y\left(f+\frac{k+1}{2N+2}\right)-y\left(f-\frac{k+1}{2N+2}\right)\right|^2, \quad (13)$$

burada $y(f)=\sum_{n=1}^{N}X_n\exp(-i2\pi nf)$ - X_n ilkin stasionar müvəqqəti sıranın Furye çevrilməsidir. Tezlik təşkildeicisinin yan çıxıntıları $y\left(f+\frac{k+1}{2N+2}\right)$ funksiyanın yan çıxıntıları ilə kəsişdiyi üçün $y\left(f-\frac{k+1}{2N+2}\right)$, nəticədə (13) ifadəsi ilə təyin olunan $\hat{S}(f)$, daha aşağı qarışma səviyyəsinə və periodqramma nisbətən (11) daha kiçik yan çıxıntılara malik olur. Spektral qiymətləndirmənin (13) lokal qarışması bərabərdir [4]: $\sum_{k=1}^{K}\mu_k\cdot\frac{K^2}{4N^2}+O\left(\frac{K^2}{N^3}\right)$.

Taperlər (10) Slepian taperlərə nisbətən əsas çıxıntıda (mərkəzi) qarışmanın azalması və $\widetilde{H}(f)$ spektral pəncərənin yan çıxıntılarının amplitudunun aşağı düşməsi hesabına kiçik lokal qarışmaya malikdirlər. $\sum_{k=1}^{K}\int_{-1/2}^{1/2}\left|V^{(k)}(f)\right|^2 f^2 df$ ifadəsi ilə təyin olunan spektral enerji ($V^{(k)}(f)$-$v_n^{(k)}$taperdən Furye çevrilməsidir), sinusoidal taperlər halında tezliklər zolağında konsentrasiya olur

$$\frac{k}{2(N+1)}\le|f|\le\frac{k+2}{2(N+1)}, \quad (k=0,1,\ldots,N-1)\,. \quad (14)$$

Göründüyü kimi, K sinusoidal taperlərin istifadəsi [6, §4.3], $[-W',W']$, $W'=(K+1)/2(N+1)$ intervalında konsentrasiya olunmuş spektral pəncərə $\overline{H}(f)$ ilə multitaper spektral qiymətləndirməyə (8) gətirir. Belə ki, taperlərin K ədədi (10) aprior tapşırığında tezliklər zolağının eni $2W'=(K+1)/(N+1)$ bərabər olacaq. Əksinə olaraq, $2W'$ tezlik zolağının məlum enində taperlərin sayını müəyyən etmək olar: $K=2W'(N+1)-1$.

Əgər güc spektri $S(f)$, $\overline{H}(f)$spektral pəncərənin tezlik zolağı daxilində tez dəyişilmirsə, onda $\hat{S}^{(mt)}(f)$-nin spektral qiymətləri təxmini korrelyasiya olunmamışlar ki, bu da approksimasiyaya gətirir [6, c.360]

$$v(f)\equiv\frac{\hat{S}^{(mt)}(f)}{S(f)}\sim\frac{\chi^2_{2K}}{2K}, \quad 0<f<\frac{1}{2}, \quad (15)$$

burada χ^2_{2K} - χ^2 - 2K sərbəstlik dərəcəsi ilə paylanmadır.

Bartlet və Kendalın [14] işlərindəki ehtimaldan (15) belə alınır ki, $E\{\log v(f)\}=\psi(K)-\log K$ və $\operatorname{var}\{\log v(f)\}=\psi'(K)$, harada ki, $\psi(\cdot)$ və $\psi'(\cdot)$ uyğun olaraq funksiyanın ikiqamma və üçqammasıdır. [15]-dən təyin olunmuşdur ki, $\psi(x)$ - $\Gamma(x)$ funksiyasının loqarifmik törəməsidir, yəni $\psi(x)=\frac{\Gamma'(x)}{\Gamma(x)}=(\ln\Gamma(x))'$. $\psi(x)$-in hesablanması üçün rekurent düsturdan [16] $\psi(k+1)\equiv -C+\sum_{l=1}^{k}\frac{1}{l}$, $\psi(1)=-C$ istifadə olunur, burada

$C = 0{,}5772156...$-Eyler sabitidir, $\psi'(x)$ üçün isə $\psi'(x) = \frac{1}{x^2} + \sum_{n=1}^{\infty} \frac{1}{(n+x)^2}$ düsturu asan alınır. Hər iki hissənin loqarıfmlənməsindən (15) sonra $\log \hat{S}^{(mt)}(f) = \log S(f) + \log v(f)$ alırıq. Ən azı $K \geq 5$, $\log v(f)$ paylanması orta $\psi(K) - \log K$ ilə normal paylanmaya çox yaxındır [14]. Bu onu bildirir ki, bütün f-lər üçün ($f = 0$ və $f = \pi$-yə yaxın tezlikləri çıxmaqla) $\eta(f) \equiv \log v(f) - \psi(K) + \log K$-nin təsadüfi hədd qiyməti təqribi 0-a bərabər orta qiyməti və $\sigma_\eta^2 = \psi'(K)$ dispersliyi olan qauss paylanmasına malik olacaqdır [21]. Onda $\zeta = \log v(f)$ həddi ortalama ilə $\psi(K) - \log K$-bərabər, $\sigma_\zeta^2 = \sigma_\eta^2 = \psi'(K)$ dispersiyalı təqribi normal təsadüfi dəyişən olacaqdır

Eyni zamanda iki asılı olmayan qiymətin ξ_1 və ξ_2 və təsadüfi $\xi \in N(0,1)$ qiymətin məşhur yaratmaq metodundan istifadə edərək [17, 18], $\zeta = m + \sigma\xi$ düsturu ilə $N(m,\sigma)$ təsadüfi qiymətlərin iki asılı olmayan qiymətini almaq olar. Bizim halda $m = \psi(K) - \log K$ və $\sigma = \sigma_\eta = (\psi'/K)^{1/2}$. Qiymət $X = \frac{\zeta - m}{\sigma} \in N(0,1)$-dir. Qoy normal paylanmanın standart funksiyası və α-hər hansı bir müsbət ədəd olsun (məsələn, $\alpha = 0{,}01$) və $\Phi(x;0{,}1) = P\{X < x\} = \alpha$. $\varphi(\alpha)$ funksiyasından ona əks olan к $\Phi(x;0{,}1)$ qeyd edək. Bu onu göstərir ki, $\Phi(\varphi(\alpha);0{,}1) = \alpha$ $(0 < \alpha < 1)$. Hamısında $\alpha \in (0{,}1)$ $\varphi(\alpha) + \varphi(1-\alpha) = 0$ olduğu üçün praktiki olaraq $\varphi(\tilde{\alpha})$, $\tilde{\alpha} = 1 - \alpha$, $0{,}5 \leq \tilde{\alpha} < 1$ hesablamağı baçarmaq kifayətdir.

Approksimasiya düsturundan istifadə edək [19]:

$$\varphi(\tilde{\alpha}) = t - \frac{a_0 + a_1 t}{1 + b_1 t + b_2 t^2} + v_1(\tilde{\alpha}),$$

$$t = \sqrt{-2\ln(1-\tilde{\alpha})}, \quad 0{,}5 \leq \tilde{\alpha} < 1, \qquad (16)$$

burada $a_0 = 2{,}30753$, $a_1 = 0{,}27061$, $b_1 = 0{,}9929$, $b_2 = 0{,}04481$; xəta $|\varepsilon_1| < 3 \cdot 10^{-3}$.

$P\{X > x\} = 1 - \Phi(x) = 1 - \alpha$ olduğu üçün

və
$$\varphi(1-\alpha) = -\varphi(\alpha),$$

onda
$$\Phi(\varphi(\alpha);0{,}1) = \Phi(-\varphi(\tilde{\alpha});0{,}1).$$

Belə ki, (16) düsturu ilə $\varphi(\tilde{\alpha})$, $\tilde{\alpha} = 1 - \alpha$ hesablamaq kifayətdir ki, $P\{X > (-\varphi(\tilde{\alpha})\} = 1 - \Phi(\varphi(\tilde{\alpha});0{,}1) = 1 - (\varphi(\alpha);0{,}1) = 1 - \alpha$ olsun. Güman etsək ki, $x = -\varphi(\tilde{\alpha})$ və $x = \frac{\zeta - m}{\sigma}$, $P\{\zeta > m - \sigma \cdot \varphi(\tilde{\alpha})\} = \tilde{\alpha}$ tapırıq və ardıcıl olaraq $P\{v(f) > \exp(m - \sigma \cdot \varphi(\tilde{\alpha})\} = \tilde{\alpha}$, buradan tapırıq:

$$P\{S(f) < \hat{S}^{(mt)}(f) \cdot \exp[\sigma \cdot \varphi(\tilde{\alpha}) - m]\} = \tilde{\alpha} \qquad (17)$$

Aşağıda olduğu kimi (см. [2], с.111)

$$S(f_n)=\frac{1}{N}\sum_{\tau=0}^{N-1} g_\tau e^{-i2\pi n\tau/N}, \quad f_n=\frac{n}{N\Delta t} \quad \left(n=0,1,\ldots,\left[\frac{N}{2}-1\right]\right)$$

- Furye funksiyasının diskret çevrilməsi $g(\tau)=\mathrm{cov}(X(t),X(t+\tau))$ $g(0)=\sigma_X^2$ - $\{X(t)\}$ sırasının dispersiyası olduğundan, onda $g(\tau)=\sum_{n=0}^{\left[\frac{N}{2}-1\right]} S(f_n)\cdot e^{i2\pi n\tau/N}$ və

$$g(0)=\sum_{n=0}^{\left[\frac{N}{2}-1\right]} S(f_n) \tag{18}$$

(17) və (18) –dən alınır

$$P\{\sigma_X^2<\exp[\sigma\cdot\varphi(\tilde{\alpha})-m]\cdot\sum_{n=0}^{\left[\frac{N}{2}-1\right]} S^{(mt)}(f_n)\}=\tilde{\alpha}\,. \tag{19}$$

Belə ki, fərziyyəyə görə $X(t)$ $X_S(t)$ sırasının $x(t)$ azalma ilə alınmış qeyri-müntəzəm təşkiledicisidir, onun dispersiyası aşağı tezlikli qeyri-müntəzəm təşkiledicisinin dispersiyasını dominantlaşdırır (çox üstələyir), σ_X^2 dispersiyası təqribi olaraq bütün azalan sıranın dispersiyasına bərabərdir.

Fərz edəcəyik ki, $X(t)$ stasionar prosesi erqodikdir. [20]-də qeyd edildiyi kimi erqodiklik xassəsinə ancaq stasionar proseslər malik ola bilər və praktikada stasionar təsadüfi proseslər erqodikdirlər. Erqodik proseslərin bütün xassələrini vahid bir seçmə funksiyası ilə təyin etmək olar. Belə ki, (19) düsturunun ehtimallığı ilə qiymətləndirilən X, orta $\overline{X}=0$ və σ_X^2 dispersiyasının $X_n\,(n=0,1,\ldots,N-1)$ qiymətlərinin təsadüfi hədlərinin reallaşdırılması kimi hesab etmək olar.

Çebışev qeyri-bərabərliyinə görə [19], təsadüfi X həddi aşağıdakı bərabərsizliklər ehtimalına əsasən qiymətləndirilir:

$$P\{|X-a|\geq\Delta\}\leq\frac{\sigma^2}{\Delta^2}, \tag{20}$$

burada $a=EX$ и $\sigma^2=DX=E(X-a)^2$. (20) düsturundan $\frac{\sigma}{\Delta}\leq\delta$ $(0<\delta<1)$ şərtində bərabərsizlik üzə çıxır:

$$P\{a-\Delta\leq X\leq a+\Delta\}\geq 1-\delta^2, \tag{21}$$

Tutaq ki, $\{x_k\}_1^N$ sırası $x(t)=x^{mp}(t)+X(t)$ qeyri-stasionar prosesi təsvir edir, burada $x^{mp}(t)$ - fasiləsiz- parçalı funksiyadır, $t\in[1,N]$ olduqda, 1-ci cinsin parçalanması və $x_{\max}^{mp}$ – maksimum funksiyası parçasında $[1,N]$ $x^{mp}(t)$ (20). $\sigma^2=\sigma_X^2\varepsilon$ -də (ε-kifayət qədər kiçik müsbət ədəd), (19) və (21)-dən tapırıq ki, $P_Д\geq\tilde{\alpha}(1-\delta^2)$ inandırıcı ehtimalla və $\delta\geq\frac{\sigma}{\Delta}$ ilə $X<a+\Delta$ ödənilir.Belə ki, $x(t)=x^{mp}(t)+X(t),\ t\in[1,N]$, onda yuxarıda göstərilən $P_Д$ ehtimalla alırıq.

$$x_{\max}\leq x_{\max}^{mp}+(a+\Delta), \tag{22}$$

burada $x_{\max} = \max\limits_{t \in [1, N]} x(t)$, $a = m^*$ (m^* - $X(t)$ sırasının ortasıdır, $x(t)$ -nın azaldılması ilə alınmışdır). Beləliklə, tədqiqatın nəticələrini qazlift kompressor stansiyasında istifadə edilən soyudan istilkdəyişdirici aparatın vibrasiyasının hesablanması ilə bağlı aşağıdakı nəticələrə gəlmək olar

Nəticə: İşdə təklif olunmuş yanaşma - qeyri-stasionar zaman sırasının güc spektrinin flikker səs spektroskopiyası metodu ilə sinqular komponentinin əvvəlcədən təcrid edilməsi ilə multitaper çoxmərhələli qiymətləndirilməsi güc spektrinə qısa müddətli qəfil artımların (sıçrayışların) və törəmələrin kəsilmələrinin sonrakı “laminar” sahələrdəki relaksasiya sönmələri ilə müşaiyət olunan qiymətləri ilə uyğunlaşmasına imkan verir. Bu sıçrayışlar taperlərin maksimal sayını təyin edirlər, onların əsasında səs-küylü qeyri-stasionar müvəqqəti zamanın kifayət qədər dəqiq çoxmərhələli qiymətləndirilməsi qurulur.

ЛИТЕРАТУРА

1. Tomson D.J. Spectrum estimation and harmonic analysis //Proc IEEE 70, 1982, 1055-1096.
2. Percival D.B., Walden A.T. Spectral analysis for physical applications. Multitaper and conventional univariate techniques. - Cambridge: Cambridge University Press, 1993
3. Slepian D. Prolate Spheroidal Ware/Functions, Fourier Analysis and Uncertainty – V: The Discrete Case// Bell System Technikal Journal, 57, 1371-1430 (1978)
4. Riedel K.S., Sidorenko A. Minimum bias multiple taper spectral estimation //IEEE Trans. Signal Processing, 1995, vol. 43, pp. 188-195
5. Bell B, Percival D.V. and Walden A.T. Calculating Thomson's spectral multitapers by inverse iteration //J. Comp. Graph. Statist., 2, 1993, 119-130
6. Walden A.T., McCoy E.J., Percival D.B. The effective bandwidth of a multitaper spectral estimator //Biometrika, 82, no1, 1995, pp 201-214
7. Тимашев С.Ф. Фликкер-шумовая спектроскопия: информация в хаотических сигналах – М: ФИЗМАТЛИТ, 2007 – 248c.
8. Тимашев С.Ф., Встовский Г.В. Фликкер-шумовая спектроскопия в анализе хаотических временных рядов динамических переменных и проблема отношения «сигнал-шум» //Электрохимия, 2003, т. 39, №2, с.156-169
9. Kantelhardt J.W., Zschiegner S.A., Kescielny – Bumde E., Havlin S., Bumde A., Stanley H.E. // Физика A. 2002. 316. 87-114
10. Олемской А.И. Синергетика сложных систем. Феноменология и статистическая теория. – М.: КРАСАНД, 2009-384с.
11. Бриллинджер Д. Временные ряды. Обработка данных и теория /Пер. с англ. – М: Мир, 1980-536 с.
12. Отнес Р., Эноксон Л. Прикладной анализ временных рядов. Основные методы /Пер. с англ. – М: Мир, 1982-428 с.
13. Самарский А.А., Гуль А.В. Устойчивость разностных схем. – М: Наука, 1973 -415 с.
14. Кадомцев Б.Б. «Динамика и информация». – М.: Ред. ж-ла Успехи физических наук, 1997 – 401 с.
15. Встовский Г.В. Элементы информационной физики – М.: МГПУ, 2002-258 с.
16. Джанахмедов А.Х., Дышин О.А., Джавадов М.Я. Синергетика и фракталы в трибологии – Баку: АПОСТРОФФ, 2014-501с.
17. Дженкинс Г. Ваттс Д. Спектральный анализ и его приложения. Пер. с англ. – М.: Мир, 1971-316 с.
18. Bartlett M.S. and Kendall D.G. The statistical analysis of variance – heterogencity and the logarithmic tromsformations. //Suppl. J.R. Statist Soc, vol.8., pp. 128-138, 1946
19. Batir N. Monotonicity properties of q-digamma and q-trigamma functions //Journal of

Approximation Theory 192 (2015) 336-346
20. Кузнецов Д.С. Специальные функции –М.: Высшая школа, 1965-272 с.
21. Ермаков С.М., Мих621айлов Г.А. Курс статистического моделирования – М.: Наука, 1976-319 с.
22. Press W.H., Teukolsky S.A., Vetterling T., Flannerg B.P. Numerical Recipes in C. The Art of Scientific Computinq sec. ed. Cambridge University Press – 1992
23. Прикладная статистика. Основы моделирования и первичная обработка данных. Справочное пособие /С.А. Айвазян, И.С. Енюков, Л.Д. Мешалкин – М.: Финансы и статистика, 1983-471 с.
24. Бендат Дж., Пирсол А. Прикладной анализ случайных данных /Пер. с англ. – М.: Мир, 1989-540 с.
25. Динамика конструкций гидроаэроупругих систем /Отв. ред. С.М. Каплунов, Л.В. Смирнов, Ин-т Машиноведения им. А.А. Благонравова – М.: Наука, 2002-397 с.
26. РД 24.271.01-88. Методы оценки вибрационных характеристик трубных систем регенеративных подогревателей низкого давления и подогревателей сетевой воды – М.: Минтяжмаш СССР, 1990-37 с.

MULTITAPER ESTIMATES OF THE POWER SPECTRUM OF STOCHASTIC TIME SERIES USING FLICKER-NOISE SPECTROSCOPY

Rabia Nadjafkulieva

Senior lecturer, Department of “Engineer and Computer Graphics”, Azerbaijan State Oil and Industry University, Dissertant, Azerbaijan. E-mail: rabiya.nadjafkuliyeva@gmail.com

ABSTRACT

Spectral analysis of stochastic time series, based on the Fourier transform of the correlation function, is one of the frequently used phenomenological approaches to the study of dynamic processes with noise. The paper proposes a computational procedure for constructing multitaper spectral estimates of a noisy non-stationary time series using the flicker-noise spectroscopy method for the irregular component of the series. The procedure is implemented on the example of calculating the maximum stress in a heat exchanger used at a gas lift compressor station. The calculation results are compared with the results of the numerical solution of the problem of free oscillations of the apparatus tubes, excited by periodic aerodynamic forces and modeled by a linear partial differential equation.

Keywords: heat exchanger, selection, flicker noise spectroscopy, multitaper spectral evaluation.

https://doi.org/10.36962/ETM0602202149

KƏMƏR BAŞLIĞININ KİPLƏŞDİRMƏ DÜYÜNÜNÜN TƏDQİQİ

[1]Məhin Bağırova, [2]Yeganə Nəsirova

[1]Dosent, "Neft-qaz avadanlığı" kafedrası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Texnika elmləri namizədi, Azərbaycan. E-mail: mehin.bagirova@mail.ru

[2]Magistrant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan. E-mail: yegananasirova18@gmail.com

XÜLASƏ

Məqalədə quyuda qazmanı qurtardıqdan, istismar kəmərini endirib sementlədikdən, habelə kəmərdəki sement tıxacını qazıdıqdan sonra (sementin kəmər arxasında qalxma hündürlüyünü elektrik termometri ilə təyin edərkən kəmərdə sement tıxacı olduğu muəyyən edilərsə) quyuağzının avadanlıqla təchizi zamanı qoruyucu kəmərlərin asılması üçün istifadə olunan kəmər başlıqları, onların növləri və kipləşdirici elementinin tədqiqi barədə məlumat verilir.
Açar sözlər: kəmər başlığı, qoruyucu kəmər sargısı, hermetiklik, paz, manjet, metal kipləndirici, asma – kipləndirmə.

Giriş: Neft və qaz quyularının qazılması və istismar olunması müxtəlif proseslərdən ibarətdir. Neft və qaz quyularının layihə dərinliyinə qədər qazılmasından sonra oraya qoruyucu kəmərlər endirilir. Endirilmiş qoruyucu kəmərlər də bir-biri ilə quyuağzında kəmər başlığı ilə hermetikləndirilir. Bundan başqa kəmər daxili quyuağzında preventorlarla hermetikləndirilir. Kəmər başlığı atqıya qarşı avadanlıq kompleksinə daxil olan əsas avadanlıqlardan biri hesab olunur.

İşin aktuallığı: Kəmər başlıqları həmçinin atqıyaqarşı avadanlıq olduğu üçün onlar tələb edilən təzyiqlərdə kipliyi tamamilə təmin etməlidirlər. Kəmər başlıqlarının istismar şəraiti olduqca mürəkkəbdir. Belə ki, kəmər başlıqları müxtəlif şəraitlərdə istismar edildiyi zaman temperatur, təzyiq, o cümlədən, abrasiv, korroziya edici və yeyici mühitin təsirinə məruz qalır. Bu təsirlər qoruyucu kəmər sargısının kipləşdirmə mexanizminin işinə mənfi təsir göstərir. Kəmər başlığının kipləndirmə düyününün sıradan çıxması hallarında kipləşdirməni təmin edə bilməməsinin tədqiqi qarşıda duran aktual məsələlərdən biridir.

İşin məqsədi: Azərbaycanda və xarici ölkələrdə mövcud olan, neft və qaz quyularının qazılması və istismarında istifadə olunan və əsas avadanlıqlardan biri olan müxtəlif tipli kəmər başlıqlarının kipləşdiricilərinin effektli işini təmin etmək üçün mövcud şəraitdə hansı materialdan hazırlanan kipləndiricinin etibarlı işinin təmin edilməsinə nail olmaqdır.
Quyuların istismarı prosesində quyuağzında istifadə olunan kəmər başlıqları (qoruyucu kəmər sargısı) atqıya qarşı avadanlığın bir hissəsidir. Konstruktiv cəhətdən bir sıra müxtəlif əməliyyatları yerinə yetirmək qabiliyyətinə malikdir. Kəmər başlığının əsas vəzifəsi istiqamətləndirici kəmərlə aralıq və istismar kəmərləri aralarında olan həlqəvi fəzalarda kiplik yaratmaqdan ibarətdir. Qoruyucu kəmər sargısı əsas etibarilə bir sıra digər texnoloji əməliyyatları da yerinə yetirir ki, buna kəmərlərarası fəzanı hermetikləşdirmək, qoruyucu kəməri öz üzərində saxlamaq¸ kəmərlərarası fəzanı bir-birindən ayırmaq¸ kəmərlərarası fəzaya

nəzarət etmək və lazım gəldikdə ona müdaxilə etmək, fontan armaturunu yerləşdirmək, həmçinin atqının qarşısını alan digər avadanlıqları öz üzərində yerləşdirmək aiddir. Bunu da qeyd etmək lazımdır ki¸ kəmər başlığına həm də sarğı birləşdirilir ki¸ məhz bu sarğının köməyi ilə onda quyuya endirilmiş qoruyucu kəmərlər bağlanır¸ eyni zamanda quyunun yuxarı ağız hissəsi yüksək dərəcədə etibarlı şəkildə kipləşdirilir. [2]


Qoruyucu boru kəmərləri üçün nəzərdə tutulmuş kəmər başlığı iki növə ayrılır. Bunlardan birincisi OKM (qoruyucu boru kəmərləri muftalı asqı ilə); digəri isə OKK (qoruyucu boru kəmərləri pazvari asqı ilə) tipli konstruksiyadır.

Sadalanan hər iki konstruksiya imkan verir ki, asılmış boru kəmərləri arasındakı fəzada kiplik pozulduğu hallarda ora hermetikliyi bərpa etmək məqsədi ilə xüsusi pasta və ya özübərkiyən plastik kütlə vurulsun.

Muftalı asqı ilə konstruksiyalanan qoruyucu boru kəməri sarğısı (OKM) 14 MPa təzyiqə hesablanmışdır. Və bu konstruksiyanın əsasən bu hissələrdən ibarətdir: gövdə, muftalı asqı, təsbitedici (stopor) vintlər, tıxaclı kran və manometr.

Pazlı asqı ilə konstruksiyalanan qoruyucu boru kəməri sarğısı (OKK) 21, 35 və 70 MPa təzyiqlərdə istifadə üçün nəzərdə tutulur. Belə bir konstruksiya özü də ayrı-ayrı yığım vahidlərindən – kəmər başlığından ibarətdir.

Qoruyucu boru kəməri sarğılarının istənilən növündə bütün bölmələr üzrə paz (və ya mufta) asqısı, kipləndirmə mexanizmi və sütun sarğısının manifoldları olur (şəkil 1).[7]



Şəkil 1. Quyu ağzı sütun sarğısı

1 – sütun sarğısı gövdəsi; 2 – kipləndirilən kəmər borusu; 3 - manometr; 4 – sütun sarğısı manifoldu; 5 – asma mexanizmi; 6 – kipləndirmə mexanizmi; 7 – idarəedici vintlər; 8 – bağlayıcı armatur (kran)

Kəmər başlığında tətbiq edilən kipləşdirici istismar kəməri ilə qoruyucu kəmər arasında kipliyin təmin olunması məqsədilə yerləşdirilir (şəkil 2). Və 2 materialdan - rezin və metal materiallarından hazırlanır. Daxili hissəsində isə 120°C– dən bir araboşluğu vardır. Bu araboşluğunun əsas məqsədi isə quyudan gələn məhlulun keçməsini təmin etməkdən ibarətdir.

Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən “CAMERON” şirkəti tərəfindən istehsal olunan kəmər başlıqlarında kipliyin təmin olunması bu ardıcıllıqla yerinə yetirilir: ilk növbədə istifadə olunan kipləndiricilər, dəmir həlqələr hər biri yığılır; daha sonra isə pazlardan asıldığı


zaman həmin pazların götürdüyü yük rezin kipləşdiriciyə də düşür. Bunun da nəticəsində tələb olunan hermetiklik təmin edilir. [6]

"CAMERON" istehsalı kəmər başlıqlarından fərqli olaraq AZİNMAŞ istehsalı kəmər başlıqlarında isə kipləşdirmə prosesi fləns hesabına baş verir.

Bu növ kipləşdirmə düyünündə metal materialdan istifadə olunur ki, bu da onun digərlərindən fərqləndirən ən mühüm və fərqləndirici cəhəti hesab olunur. Metal materialdan hazırlanan həlqələr müxtəlif ölçülərdə hazırlanmış aralıq kipləşdiricilərlə kolona birləşdirilir. İstifadə olunan bu aralıq kipləşdiricilərin həndəsi ölçüləri bir – birindən yüzdə bir dəqiqliklə fərqlənir, bu isə onunla əlaqədardır ki¸ istifadə edilən kolonların diametrlərində bir qədər fərqlər mövcud ola bilər. Aralıq kipləndiricilərdən həmin kolonların diametrinə uyğun olan növü metal həlqələr arasında yerləşdirilir. İstifadə olunan bu tip metal kipləndiricilərin ən vacib hesab olunan müsbət tərəfi müəyyən bir səbəbdən yanğın baş verdikdə metal olduğuna görə yanğına davamlılıq göstərməsidir. Kipləşdiricilərin quraşdırılması zamanı onlar bir-birinin əksi istiqamətində oturdularaq üzərinə metal həlqəni yerləşdirirlər. İçəri və çölə doğru oturdulan kipləşdiricilərin girintisi mövcuddur. Kipləşdiricilərdən içəriyə doğru oturdulmuş olanına kəmər quraşdırılır. Digər kipləşdiriciyə, yəni çölə doğru yerləşdirilmiş olana isə kəmər başlığı oturdulur. Bununla da kəmər başlığı kipləşdiriciyə oturdulduğu zaman sıxılma hadisəsi baş verir və nəticədə kiplənmə prosesi həyata keçmiş olur.[3]


Qoruyucu kəmər sarğılarında borular arasını hermetikləşdirmək məqsədi ilə müxtəlif tipdə sistemlər hazırlanıb və müasir dövrümüzdə effektiv şəkildə tətbiq olunur. [4]

Onlardan bəzilərinə nəzər yetirək:



Şəkil 2. Kipkəc mexanizmi


Bir sıra kolon kəmər başlıqlarında borular arası fəzanın hermetikləşdirilməsi üçün rezin materialdan hazırlanmış manjetlər tətbiq olunur (şəkil 3).



Şəkil 3. Aralıq kəmərdə boru kipləndiricisi

Belə bir konstruksiya əsasən iki, üç və dörd sıralı kəmərlərdən istifadə olunan quyularda axırıncı sırada yerləşmiş borular arası fəzanı hermetikləşdirməni təmin edir.
Aşağıda yerləşən borular arası fəzanın hermetikliyini uyğun qoruyucu kolonların dördboğazının üz səthinə qaynaq etməklə də təmin etmək mümkündür. Lakin hermetiklik belə bir üsulla, yəni qaynaq tikişilə təmin olunması bir sıra səbəblərə görə effektiv hesab olunmur. Bu səbəblərə aşağıdakıları misal göstərə bilərik:
- İlk növbədə, quyunun qazılma şəraitinin tələblərindən asılı olaraq müxtəif xüsusiyyətlərə malik olan metal materiallarını qaynaq etmək texnoloji cəhətdən bir sıra çətinliklər törədə bilər. Bunun da nəticəsində qaynaq tikişi keyfiyyətsiz nəticələnə bilər.
- Digər səbəb kimi qeyd etmək olar ki, quyuda temperatur rejiminin dəyişməsi qoruyucu kəmərin müəyyən qədər şaquli hərəkətinə səbəb ola bilər. Bu da öz növbəsində qaynaq tikişinin pozulmasına gətirib çıxarır. Bu pozulmanın təsiri nəticəsində uyğun boruarası fəzanın hermetikliyinin pozulması halları baş verə bilər. Belə olan hallarda quyuda avadanlıqların əsaslı təmiri aparılan zaman müxtəlif texnoloji proseslər yerinə yetirildikdə mayenin təzyiq altında axması müşahidə oluna bilər ki, bu pozuntular yerinə yetirilmiş qaynaq tikişinin keyfiyyətli olmamasından irəli gəlir.
- Başqa bir səbəb isə qoruyucu borularla qaynaq olunmuş kolon başlığının əsas detalı olan dördboğazlarının quraşdırılması prosesinin çətinləşməyidir.
Səttarxan maşınqayırma zavodunda istehsal olunan kəmər başlıqlarında 150^0 C - ə qədər yüksək temperaturlara davam gətirə bilən və eyni zamanda korroziyaya qarşı da kifayət qədər müqavimət göstərmək qabiliyyətinə malik olan rezin materialdan hazırlanmış manjetlər geniş istifadə olunur.
Kolon başlığında borulararası fəzanın hermetikləşdirilməsi prosesi aşağıdakı kimi həyata keçirilir:
Kəmər başlığından asılan, diametri 168, 219 və 299 mm olan borular hər iki tərəfdən manjetlərlə (1) və (2) kipləndirilir (şəkil 4). Bu majetlərlə kipləşdirmə istər yuxarıdan, istərsə də aşağıdan işçi təzyiqin asqılara keçməsinin qismən qarşısını alır, onu bir qədər məhdudlaşdırır. Avadanlığın etibarlılığını bir qədər də artırmaq, hermetikliyi tam təmin etmək məqsədi ilə sonuncu iki 168 və 219 mm diametrli boruların kipləşdirici düyünlərinə ştuserdən (3) istifadə edərək xüsusi özübərkiyən pasta vurulur. Diametri 377 mm olan kalonu ancaq

yuxarı hissədən hermetikləşdirirlər, bununla da elə təsəvvür edilir ki, işçi təzyiqin birinci boruarxası fəzadan axması ehtimalı daha azdır. [5]




Şəkil. 4. Kəmər başlığında qoruyucu borunun kipkəc düyünü

Belə konstruksiyalı qoruyucu kəmər sarğılarında (kəmər başlıqlarında) boru arxası fəzada hermetikliyin təmin edilməsi qaynaqdan istifadə etmədən, xüsusi pastadan və kipləşdirici manjetdən istifadə etməklə həyata keçirilir. ANQ tipli manjetləri tətbiq edərək kəmər başlığından asılmış qoruyucu kalonların hermetikliyini təmin etmək bu şərt ilə mümkündür: İlk növbədə kipləşdirici dəst yığılmalıdır. Daha sonra isə manjetlərdə müəyyən qədər dartılma yaradılmalıdır.
Sərbəst, yəni yerinə oturdulmamış vəziyyətdə eni B - ə bərabər olan və yarpaqların açılma bucağı α/2 (şəkil. 5) ilə hesablanan ANQ tipli manjetin etibarlı şəkildə hermetikləşdirməni təmin etməsi üçün tələb olunan dartılması (ε) aşağıda verilmiş düsturla hesablanır:

$$\varepsilon = B - \frac{D_{dax} - D_{xar}}{2} = B - B_1$$


Burada: B – sərbəst halda manjetin en kəsiyinin eni, mm; B_1 – yerinə oturdulmuş halda manjetin en kəsiyinin eni, mm; $D_{dax.}$ – asqının daxili diametri, mm; D_{xar} – asqının xarici diametri, mm
Aparılmış təcrübələr və onların nəticələrinə əsasən müəyyən edilmişdir ki, istifadə olunan manjetin tələb olunan dartılması (ε) kəmər başlığından asılan və kipləşdirilən qoruyucu boruların mövcud diametrlərinə uyğun olaraq seçilir. Əsas funksiyasını yerinə yetirmək, yəni etibarlı şəkildə hermetikliyi təmin edə bilmək üçün manjetin dartılması 0,5 – 1,5 mm aralığında yerinə yetirilməlidir.
Ləçəklərin açılma bucağı kipləşdirici manjetlərin dartılaraq oturdulması zamanı dəyişir ($\alpha_1 > \alpha$). Bu zaman manjetlərin ləçəkləri qalxır ki, bu da öz növbəsində manjetlərin deformasiyaya uğramasına gətirib çıxarır.
Boru asqısını kəmər başlığının daxilində elə vəziyyətdə quraşdırırlar ki, bütün kipləşdirici manjetlərin bir yerdə olması təmin edilsin (əsasən bir yerdə olan manjetlərin sayı dörd ədəd olur).



Şəkil. 5. Kipkəc düyününün hesab sxemi

Aparılmış araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, diametri 372 mm - ə bərabər olan kipləşdirici manjetləri quraşdırmaq üçün tələb olunan qüvvə 2-3 кN təşkil edir. Manjetlərin dartılması onların diametrinin azalması ilə bir qədər azalır. Bunun nəticəsində ləçəklərin açılma bucağı α az miqdarda dəyişir və bu da manjetlərin quraşdırılmasına sərf olunan qüvvənin daha az götürülməsinə gətirib çıxarır. Diametri 168 mm və daha az olan kipləşdirici manjetləri quraşdırmaq üçün onlarla kiloqram qüvvə tələb olunur.

Bəzi konstruksiyalı kəmər başlıqlarında boruların tutulub saxlanması üçün asma mexanizmi və kipləşdirilməsi üçün nəzərdə tutulan kipləndirmə düyünü kombinə edilmiş konstruksiyada istehsal olunur. Belə tip kəmər başlıqlarında vahid qovşaqda hər iki funksiyanı (asma və kipləndirmə) yerinə yetirmək mümkündür. Belə bir konstruksiya həm istifadənin rahatlığını təmin edir, həm də konstruktiv cəhətdən daha əlverişli hesab olunur (şəkil 6).



Şəkil 6. Kombinə edilmiş asma – kipləndirmə mexanizmi

Məlum olduğu kimi qoruyucu kəmər sarğılarının istismar şəraiti xeyli mürəkkəbdir. Onlar istismar zamanı quyuağzında hermetikliyi təmin edərkən müxtəlif təsirlərə məruz qala bilər. Bu təsirlərə ən başlıca temperaturu misal göstərmək olar. Hər hansı bir səbəbdən yaranan temperaturun yüksək həddə qalxması kəmər başlığında hermetikliyi təmin edən hissələrin kipliyini pozur. Məsələn, istismar zamanı yaranmış temperatur metal materialdan hazırlanmış araqatına, sancaqlara, manjetlərə və digər detallara təsir göstərir ki, bunun da nəticəsində flansın kipliyinin, sıxılmasının pozulması kimi bir sıra hallar baş verə bilər. Həmçinin yüksək temperaturun təsiri nəticəsində detallarda uzanma deformasiyalarının baş verməsi halları və

dartıcı qüvvələr də meydana gəlir. Adətən bu hallar qoruyucu boru kəmərinin sementlənmədiyi hissələrdə müşahidə edilir (kəmərin diametri 219-168 mm olan hallarda). Bu səbəbdən də qoruyucu kəmər sarğısının konstruksiya edilməsi zamanı aparılan hesabatlarda möhkəmliyə ehtiyat əmsalını 2.5-3 aralığında qəbul etmək məsləhət görülür. [1]

Nəticə: 1. Kəmər başlığının kipləşdiricinin hansı materialdan hazırlanması araşdırılaraq öyrənilmişdir.
2. Qazılan və istismar olunan quyunun əsas tərkib hissələrindən biri olan qoruyucu kəmər sarğısı və ya kolon başlığı konstruksiyalarına daxil olan paz asqısı və kipkəc düyününün işi, yaranan işçi təzyiqindən, quyunun rejim parametrlərindən və istifadə olunan boruların növündən asılıdır və mövcud şəraitə görə uyğun variant seçilir..
3. Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, yeni konstruksiyalı kipləşdirici olan metal həlqələrdən istifadə muftanın yivinə düşən yükü azaldır. Bununla da həm muftalı asqının tez sıradan çıxmasının qarşısı alınır, həm də yüksək təzyiqlərdə və yüksək temperaturlarda onun istismara yararlılığı təmin edilir. Digər tərəfdən kipləşdirici kimi metal həlqələrdən istifadənin üstünlüyü yanğın olma ehtimalı zamanı metal olduğu üçün davamlılıq göstərməsidir.
4. Qoruyucu kəmər sarğılarında borular arasını hermetikləşdirmək məqsədi ilə hazırlanan müxtəlif tipdə sistemlərdən ən effektlisi seçilib tətbiq olunur.

ƏDƏBİYYAT

1. Salavatov T., İbrahimov R., Osmanov B., Baxşəliyeva Ş. “Neft və qaz quyularının əsaslı təmiri”, Bakı 2010
2. Şirinova V. “Neft – mədən avadanlıqlarının quruluşu və iş prinsipi haqqında prosedur” , Bakı
3. https://www.camerondrilling.com/
4. Ə.X.Canəhmədov, V.T.Məmmədov, H.V.Məmmədov. Kipləndirici düyünlər. Bakı, Elm, 2011, 306 s.1
5. M.A.Vahidov, Ö.M.Kərimov, Z.E.Eyvazova. Neft-qaz istehsalı texnikası. Bakı, Azərnəşr, 2008, 439 s.
6. https://www.slb.ru/services/completions/surface-systems/wellheads/
7. https://www.hartmann-valves.com/en/products/wellheads/

RESEARCH OF SEALING KNOT OF WELLHEAD

[1]Mahin Bagirova, [2]Yegana Nasirova

[1]Docent, “Oil and gas equipment” department, Azerbaijan State University of Oil and Industry, Candidate of Technical Sciences, Azerbaijan. E-mail: mehin.bagirova@mail.ru

[2]Master, Azerbaijan State University of Oil and Industry, Azerbaijan. E-mail: yegananasirova18@gmail.com

ABSTRACT

The article provides information on the study of the pipe heads, their types and the sealing element used to hang the protective pipes during the supply of the wellhead after the

completion of drilling in the well, lowering and cementing the production line, as well as drilling the cement plug in the pipeline (if it is determined that there is a cement plug in the pipe when determining the height of the cement behind the pipe with an electric thermometer).
Keywords: wellhead, protective pipeline casing, sealing, wedge, cuff, metal sealing, hanging-sealing.

https://doi.org/10.36962/ETM06022059

QUYU ŞTANQLI NASOSLAR VASİTƏSİLƏ NEFTİN ÇIXARILMASI ÜÇÜN MANCANAQ DƏZGAHLARININ MÜVAZİNƏTLƏŞDİRİLMƏSİ

Züleyxa Eyvazova[1], Neman Ağazadə[2]

[1]Dosent, “Neft-qaz avadanlığı” kafedrası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Texnika elmlər namizədi, Azərbaycan. E-mail: eyvazovaze@mail.ru

[2]Magistrant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan. E-mail: vip.neman@mail.ru

XÜLASƏ

Elmi məqalədə mancanaq dəzgahlarının müvazinətləşdirilməsi məsələlərinə baxılmalıdır. Quyu ştanqlı nasos qurğusu (QŞNQ) ilə istismar olunan avadanlıqların təkmilləşdirilməsi məqsədilə mancanaq dəzgahının müxtəlif müvazinətləşdirmə hesablamalarının. Təsdiq olunur ki, əgər mancanaq dəzgahı düzgün müvazinətləşdirilməzsə, onda o, normal iş prinsipi ilə işləyə bilməz və sürətli bir şəkildə tezliklə sıradan çıxar. Mancanaq dəzgahlarında müxtəlif müvazinətləşdirilmə üsulları tətbiq edilir: balansir müvazinətləşdirilməsi, rotor müvazinətləşdirilməsi, kombinəedilmiş müvazinətləşdirmə, pnevmatik müvazinətləşdirmə. Məqalədə ən geniş təıdbiq olunan balansir və rotor müvazinətləşdirməyə baxılır. Müxtəlif mancanaq dəzgahları üçün müvazinətləşdirici yükün və ya onun qolunun təyini düsturları göstərilir.

Açar sözlər: quyu ştanqlı nasos qurğusu, avadanlıqların təkmilləşdirilməsi, mancanaq dəzgahları, balansir müvazinətləşdirilməsi, rotor müvazinətləşdirilməsi, kombinəedilmiş müvazinətləşdirilmə, çarxqolu.

Giriş: Mancanaq dəzgahlarında müxtəlif müvazinətləşdirilmə üsülları tətbiq edilir: balansir müvazinətləşdirmə, rotor müvazinətləşdirilməsi, kombinəedilmiş müvazinətləşdirmə, pnevmatik müvazinətləşdirmə. Məqalədə ən geniş tətbiq olunan balansir və rotor müvazinətləşdirməyə baxılır. Mancanaq dəzgahının müvazinətləşdirməsi elektrik enerjisinin vahid dəyərinə təsir göstərir. Çarxqolun valında yaranan burucu momentin gedişin hər iki yarısı üçün sabit olması şərti ilə elektrik mühərrikində yüklər sabit olacaqdır. Yuxarı gediş zamanı və aşağı gediş zamanı işin bərabərliyi yalnız gedişin birinci yarısında sürgü qolda dartılan qüvvə, ikinci yarısında isə sıxılma qüvvəsi meydana gəldiyi təqdirdə təmin edilə bilər (bu iki qüvvə mütləq dəyərdə bərabər olacaqdır). Bu şərt yerinə yetirilərsə, elektrik mühərrikin işi ən düzgün olacaqdır. Beləliklə, mancanaq dəzgahının vahidinin müvazinətləşdirməsi lazımi əksyükün ya balansirin arxa çiynində, ya da çarxqolu üzərinə qoymaqla təmin edilə bilər. Buna uyğun olaraq rotor müvazinətləşdirməsi və kombinə edilmiş müvazinətləşdirmə arasında fərq qoyulur. Balansir müvazinətləşdirmə, bir qayda olaraq, az yükqaldırmada nasos qurğuları üçün, rotor müvazinətləşdirmə yüksək yükqaldırmada nasos qurğuları üçün və kombinə edilmiş müvazinətləşdirmə orta yükqaldırmada nasos qurğuları üçün istifadə olunur. Bu, əksyüklərin qeyri-bərabər hərəkətindən yaranan balansirə ətalət yüklərin azaldılması ehtiyacından qaynaqlanır.

Əsas hissə: Çarxqolu valının bir tam dövründə balansir bir gediş yuxarı (fırlanma bucağı φ, 0-dan π radiana qədər artır) və bir gediş aşağı (fırlanma bucağı φ, π-lə 2π arasında artır) hərəkət edir. Odur ki, bir dövrdə mancanaq dəzgahının gördüyü iş yuxarı gedişdə görülən L_{yux} işlə,

aşağı gedişdə görülən $L_{aş}$ işin cəminə bərabər olacaqdır; bu zaman ştanqların A asqı nöqtəsi qövs üzrə $2S_A$-ə bərabər olan yol qət edir [1].
Təsir edən Q qüvvəsinin qiymətini gedilən S_A yoluna vurub görülən həmin işlərin aşağıdakı ifadəsini alarıq:

- yuxarı gediş üçün $L_{yux} = Q_{yux} \cdot S_A$; (1)
- aşağı gediş üçün $L_{aş} = Q_{aş} \cdot S_A$; (2)

QŞNQ-nun istismarı nəzəriyyəsindən məlumdur ki, kanat asqısının yuxarı gediş zamanı balansirin başlığındakı əsas yük maye sütununun G və nasos ştanqların P ağırlığına bərabərdir. (sürtünmə qüvvələri, titrəmə və ətalətdən gələn qüvvələr qeyd edilə bilər). Balansirin başlığının aşağı gedişi zamanı yük yalnız ştanqların ağırlığına bərabər olur P_p, çünki bu vəziyyətdə vurucu klapan açılır və maye sütundakı yük borulara ötürülür. Bu, elektrik mühərrikinin qeyri-bərabər işləməsinə gətirib çıxarır.
Sürtünmə qüvvələrini nəzərə almasaq, yaza bilərik:

$$L_{yux} = (P + G - P_i + G_i) \cdot S_A \,. \tag{3}$$

Bu bərabərliyin sağ tərəfindəki ikinci hədd ştanqların və maye sütunun inversiya qüvvələrinin işini ifadə edir. Qəbul edilmiş harmonik hərəkət qanununda inversiya qüvvələrinin işi tam $2S_A$ yolunda sıfıra bərabər olur, çünkü, yolun birinci yarısında, yəni balansir başləği hərəkət edəndə inversiya qüvvələri müsbət, yolun ikinci yarısında isə hərəkət edəndə – mənfi olacaq. Beləliklə, çarxqolun dönməsinin ilk yarısında (yuxarı gedişdə) mühərrikin işi:

$$L_{yux} = (P+G) \cdot S_A \quad \text{olar.} \tag{4}$$


Aşağı gedişdə maye sütunun plunjerə təzyiqi G = 0 və mühərrikin işi aşağıdakına bərabər olacaqdır:

$$L_{aş} = -PS_A \tag{5}$$

Beləliklə, bir tam balansirin yırğalanma dövründə görülən iş aşağıdakı kimi ifadə edilir:

$$L = L_{yux} + L_{aş} = (P+G) \cdot S_A - PS_A = GS_A \,. \tag{6}$$

Balansir müvazinətləşdirilməsi (şək.1).



Şəkil 1. Balansir müvazinətləşdirilmiş mancanaq dəzgahının sxemi

İndi əks yükün çəkisini nəzərə alaraq işlərin aşağıdakı ifadələrini yazırıq:

– yuxarı gediş üçün $L_{yux} = (P+G) \cdot S_A - XS_C$ (7)

– aşağı gediş üçün $L_{aş} = - PS_A + XS_C$ (8)

Burada X – balansirdə yerləşdirilmiş əksyüklərdən yaranan qüvvə; S_C – balansir əksyükünün gediş yolu.
Nəzərə alınan mancanaq dəzgahı müvazinətləşdirilmiş olduğundan, yəni

$$(P+G) \cdot S_A - XS_C = - PS_A + XS_C \quad \text{olur.} \tag{9}$$

Bu tənliyi X-ə görə həll edib alırıq:

$$X = (P + \frac{G}{2}) \cdot S_A/S_C \tag{10}$$

S_A və S_C gedişlərinin qiymətləri balansirin a və c qolları ilə mütənasib olduqları üçün:

$$X = (P + \frac{G}{2}) \cdot a/c \quad \text{yazırıq.} \tag{11}$$

C nöqtəsində tətbiq edilən qüvvələrin cəmi hər hansı X_0 yükünün momentinə bərabər olmalıdır:

$$q_1a + q_2\frac{a}{2} - q_3\frac{c}{2} - q_4b = - X_0c \tag{12}$$

burada q_1, q_2, q_3, q_4 – müvafiq olaraq balansir başlığının, balansirin qabaq çiyninin, balansirin arxa çiyninin əksyükə qədər, balansirin arxa çiyninin sürgüqoluna qədər ağırlıq mərkəzində yaranan qüvvələrdir.
(12) düsturdan alırıq:

$$X_0 = \frac{1}{c}(q_3\frac{c}{2} + q_4b - q_1a - q_2\frac{a}{2}) \tag{13}$$

Beləliklə, mancanaq dəzgahının qeyri müvazinətliyini nəzərə almaqla tələb olunan əks yükün çəkisi aşağıdakı düsturla təyin edilir.

$$X = (P+\frac{G}{2})\, a/c - X_0 \tag{14}$$

Əks yükün inversiya qüvvələrinin qiyməti aşağıdakılara bərabər olacaqdır:

$$X_A = X\frac{Wc}{g} \tag{15}$$

burada W_c – əks yükün ağırlıq mərkəzi olan C nöqtəsinin təcilidir.
W_c-ni B nöqtəsinin təcili ilə əvəz edib, alırıq:

$$X_A = X\frac{Wc}{g}\frac{c}{b} \tag{16}$$

Rotor (çarxqolu) müvazinətləşdirilməsi: Mancanaq dəzgahının rotor müvazinətləşdirilməsi zamanı çarxqolda əksyüklərin quraşdırılma yerini və onların sayını təyin etmək üçün, M_t-un tarazlıq momentinin çarxqolun üzərində əksyüklərin quraşdırılma radiusdan $R_ç$ asılılığının qrafiki şəklində təqdim olunan praktik bir nomogramdan istifadə olunur [2].
Tarazlıq momenti aşağıdakı düsturla müəyyən edilir:

$$M_t = S(P_{şt} + 0,5P_m) = S(P_{max} + P_{min})/2 \tag{17}$$

burada S – quyu ağzı ştokun gediş uzunluğu, m; $P_{şt}$ – maye içindəki ştanqların çəkisi, kq; P_m – quyu nasosunun plunjerin üstündəki borudakı maye sütunun çəkisi, kq; P_{max} və P_{min} – quyu ağzı ştokun maksimum və minimum yükləridir, kq.

Misal kimi OST 26-16-08-87 [2] əsasən hazırlanan SKD8-3-4000, SKD 10-3,5-5600 və SKD12-3-5600 tipli mancanaq dəzgahların müvazinətləşdirilmə nomoqramına baxaq (şəkil 2). Pasport məlumatlarına uyğun olaraq, quraşdırılmış əksyüklərin sayından və onların quraşdırılması radiusundan tarazlıq momentinin aşağıdakı nisbətlərini təxmini təyin etmək olar.

Sxemdən (şəkil 3) görünür ki, B nöqtəsində təsir edən qüvvə şatunun qüvvəsi $P_{şat}$-dır. Bir gedişdə, yəni $\varphi = 0 \div \pi$ intervalında çarxqolu yükü aşağıdakı işi görəcəkdir.

Yuxarı gediş üçün yazmaq olar:


$$L_{yux} = (P+G) \cdot S_A - P_{yux} \cdot S_A \tag{18}$$

Sxemdən görünür ki,


$$P_{yux} \cdot r = X_y R , \quad \text{yaxud} \quad P_{yux} = X_y \frac{R}{r} S_A ; \tag{19}$$

$$L_{yux} = (P + G) \cdot S_A - X_y \frac{R}{r} S_A \tag{20}$$

Burada X_y – əksyükdən yaranan qüvvə; R – çarxqolun fırlanma mərkəzindən əksyükə gədər məsafə; r – çarxqolun radiusu.



Şəkil 2. Hər bir çarxqolu üzərində quraşdırılmış əksyüklərin sayı:
I - hər biri bir əksyükü, II - hər biri iki əksyükü, III - hər biri üç əksyükü,
IV - hər biri dörd əksyükü (bütöv xətlər SKD8-3-4000 və SKD12-3-5600 tipli mancanaq dəzgahları üçün, qırıq-qırıq xətlər – SKD10-3.5-5600 tipli mancanaq dəzgahları üçün məlumatları göstərir).



Şəkil 3. Rotor müvazinətləşdirilmiş mancanaq dəzgahının sxemi

Aşağı gediş üçün yazırıq:

$$L_{aş} = -PS_A + X_r\frac{R}{r}S_A \quad (21)$$

$L_{yux} = L_{aş}$ şərtindən alırıq:

$$(P+G) \cdot S_A - X_r\frac{R}{r}S_A = -PS_A + X_r\frac{R}{r}S_A \quad (22)$$

Bu tənliyi X_r-ə görə həll edib alırıq:

$$X_r = (P + \frac{G}{2}) \cdot S_A/S_B \cdot r/R \quad (23)$$

Burada S_B – çarxqolu əksyükün gediş yolu.

S_A və S_B gedişlərinin qiymətləri balansirin a və b qolları ilə mütənasib olduqları üçün S_A/S_B = a/b qəbul edib yazırıq:

$$X_r = (P + \frac{G}{2}) \cdot a/b \cdot r/R \quad (24)$$

X_r sabit olduğundan R-ə görə həll edirik:

$$R = [(P + \frac{G}{2}) \cdot a/b] \cdot r/X_r \quad (25)$$

Rotor müvazinətləşdirilməsi mancanaq dəzgahının reduktor valının dayaqlarında və reduktorun gövdəsində böyük yüklərin yaranmasına səbəb olur ki, bu da arzuolunmazdır.

Bundan əlavə, çarxqolunun fırlanması zamanı, əksyüklərin radiusu 1950 mm olan bir qövsü təsvir edirlər. Əksyüklərin yerə çatmaması üçün, reduktor (SKDT tipli mancanaq dəzgahları üçün) çərçivəsinə quraşdırılmış xüsusi yüksək postamentə quraşdırılmışdır. SKDT8 tipli mancanaq dəzgahı üçün bu postamentin kütləsi 795 kq-dır və bu tipölçünün hündürlüyü 963 mm artır. Bu tip mancanaq dəzgahları üçün əksyükün kütləsi 650 kq-dır.

Beləliklə, bu tip mancanaq dəzgahların ümumi kütləsi yalnız əksyüklərin və reduktor altı postamentin sayəsində artır: 650x8 + 795 = 5995 kq. Bu, mövcud mancanaq dəzgahların ölçüsünü və çəkisini azaltmaq üçün təkmilləşdirmə tədqiqatları aparmaq üçün əsas yaradır.

Nəticə: 1. Məqalədə təsdiq olunur ki, əgər mancanaq dəzgahı müvazinətləşdirilməzsə, onda o normal vəziyyətdə işləyə bilməz və tez bir zamanda o, sıradan çıxa bilər.
2. Balansir müvazinətləşdirilmiş mancanaq dəzgahlarında qeyri müvazinətliyini nəzərə almaqla tələb olunan əks yükün çəkisini təyin etmək üçün düstur verilir.
3. Rotor müvazinətləşdirilmiş mancanaq dəzgahlarında çarxqolun fırlanma mərkəzindən əksyükə qədər məsafəni təyin etmək üçün düstur verilir.

ƏDƏBİYYAT

1. С.Д.Мустафаев, Р.А.Гулиев, В.Б.Ханалиев. Новый способ определения давления в штанговых глубинных насосных скважинах. 2020, стр. 337-343.
2. Станки-качалки. Технические условия. ОСТ 26-116-08-87. Каталог. Концерн «АЗНЕФТЕМАШ». 1991. С.80.

BALANCING OF TWEEZER MACHINES FOR THE EXTRACTION OF OIL BY MEANS OF WELL ROD PUMPS

[1]Zuleykha Eyvazova, [2]Neman Agazada

[1]Docent, "Oil and gas equipment" department, Azerbaijan State University of Oil and Industry, PhD in Technical Sciences, Azerbaijan. E-mail: eyvazovaze@mail.ru

[2]Master degree student, Azerbaijan State Oil and Industry University, Azerbaijan. E-mail: vip.neman@mail.ru

ABSTRACT

The scientific article should first consider the issues of balancing tweezers. In order to improve the equipment operated by the well rod pump unit (WRP) various balancing. It is asserted that if the tweezer machine is not properly balanced, it will not be able to operate normally and will break down quickly. Different balancing methods are used on the pliers: balancer balancing, rotor balancing, combined balancing and pneumatic balancing. The article discusses the most widely used balancer balancing and rotor balancing. Formulas for determining the balancing load or its arm for different clamping machines are shown.
Keywords: well rod pumps, improvement of equipments, tweezer machines, balancer balancing, rotor balancing, combined balancing, wheel lever.

https://doi.org/10.36962/ETM0602202167

QUYU FREZİNİN KƏSİCİ HİSSƏSİNİN SÜRTÜNMƏDƏ YEYİLMƏYƏ TƏDQİQİ

[1]Məhin Bağırova, [2]Fərhad Quliyev

[1]Dosent, "Neft-qaz istehsalı" kafedrası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Texnika elmləri namizədi, Azərbaycan. E-mail: mehin.bagirova@mail.ru

[2]Magistrant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan. E-mail: ferhad.quliyev1998@mail.ru

XÜLASƏ

Əsasən qəza obyektlərinin dağıdılması yolu ilə, qəzaların ağırlıq dərəcəsindən asılı olaraq, buruqlarda təmir-bərpa işləri aparılır. Bu üsulun geniş yayılmış müxtəlifliyi qəza cismindən metal yonqarının nazik təbəqəsinin fasiləsiz götürülməsi, növbəti olaraq, yuyucu-soyuducu maye ilə xırdalanmış süxur kütləsindən yer səthinə çıxarılması prosesi frezləmə adlanır.
Frezləmə prosesləri (məsələn, nasos-kompressor boruları, nasos ştanqları və b.) riyazi təsviri (xüsusilə sürtünmə və yeyilmə prosesləri) çox çətin məsələ olan, təbiətinə görə olduqca mürəkkəb və müxtəlif fiziki hadisələrlə müşayiət olunur.
Açar sözlər: frezləmə, kəsmə prosesi, ölçüsüz kombinasiya, həddi moment.

Əsasən qəza obyektlərinin dağıdılması yolu ilə, qəzaların ağırlıq dərəcəsindən asılı olaraq, buruqlarda təmir-bərpa işləri aparılır. Bu üsulun geniş yayılmış müxtəlifliyi qəza cismindən metal yonqarının nazik təbəqəsinin fasiləsiz götürülməsi, növbəti olaraq, yuyucu-soyuducu maye ilə xırdalanmış süxur kütləsindən yer səthinə çıxarılması prosesi frezləmə adlanır.
Frezləmə prosesləri (məsələn, nasos-kompressor boruları, nasos ştanqları və b.) riyazi təsviri (xüsusilə sürtünmə və yeyilmə prosesləri) çox çətin məsələ olan, təbiətinə görə olduqca mürəkkəb və müxtəlif fiziki hadisələrlə müşayiət olunur.
Bu baxımdan frezləmənin, kəsmə prosesini həyata keçirmək imkanı olan rasional instrumental materialın, alətin həndəsi elementlərinin optimal rejimlərinin seçilməsi nəzərdən keçilən sahə üçün vacib məsələdir.
Bu işdə ölçmələrin təhlilini tətbiq etməklə, daha asan ifadələrin alınması və onların emal olunmanın müəyyən edilməsinin hesablama metodunun əldə olunmasıyla, frezləmə prosesinin əsas parametrlərinin müəyyən edilməsi üçün nəzəri asılılıqlar qurulmuşdur. Frezləmənin fiziki prosesi haqqında daha ətraflı təsəvvürü, onun böyüklüyünü xarakterizə edən sahələr verir.
İki bərk maddənin əlaqəsi kimi baxılan frezləmə prosesi növbəti əsas parametrlərlə müəyyənləşdirilir.
P-konstruksiyanın elementinə, E-materialın elastiklik modulu, Puasson- μ koefisiyenti, ϭ-materialının axıcılıq limiti, p-materialının sıxlığı, b-frezin xarakterik ölçüsünə təsir edən sıxılma gücü (oxboyu yükləmə).
Kəsmə prosesinin tələb olunan ölçüsü mərkəzdənqaçma gücdən əmələ gələn ω-təzyiq frezinin, ϭ-fırlanan frezin və U-kəsmənin dərinliyindəki məhdud an-M_s künc sürətindən ibarətdir. M_s-məhdud anı L parametrlərindən və məhsulun sertifikatından irəli gələrək, müəyyən etmək olar.
p,, b, ω, E kəmiyyət sistemindən ölçüsüz kombinasiya təşkil etmək olar:

$$\frac{E}{pb^2\omega^2}$$

Bu ölçülərdən ϭ , p, b, ω, E iki ölçüsüz simpleks yaranır:

$$\frac{\sigma}{E}, \frac{\sigma}{pb^2\omega^2}$$

Onda $\sigma = Ef_1\left(\frac{E}{pb^2\omega^2}, \mu\right)$ və ya

$$\sigma = pb^2\omega^2 f_1\left(\frac{E}{pb^2\omega^2}, \mu\right)$$

Əgər gərginliyin ϭ xətti olaraq $p\omega^2$ parametrdən asılı olduğu qəbul olunubsa, onda f_1 funksiyasını aşağıdakı formada yazmaq olar:

$$f_1 = \left(\frac{E}{pb^2\omega^2}\right)^{-1} \quad c(\mu)$$

Buradan

$\sigma = c(\mu)\, pb^2\omega^2$

Məhdud momenti M_s b və σ_s bu parametrlərə əsasən müəyyən etmək olar.
M_s, b, σ_s ölçüləri sistemindən bu ölçüsüz kombinasiyanı müəyyən etmək olar: $\frac{M_s}{\sigma_s b^3}$.

Onda $M_s = K_\varphi \sigma_s b^3$.

Burada frezin dişlərinin formasından asılı olan K_φ- daimidir.
p. Ƅ,a kəmiyyət sisteminin köməyilə frezin künc sürətini xarakterizə etmək olar. Bu kəmiyyət sistemi yeganə ölçüsüz simpleks yaratmağa imkan verir:

$$\frac{\sigma_s}{pb^2\omega^2}$$

$$\sigma_s = c\, p\, b^2\omega^2$$

Bu ifadədən alınır:

$$\omega = \omega_s = c\,\frac{1}{b}\,\frac{\sqrt{\sigma_s}}{p}$$

Burada frezin dişlərinin həndəsi formasından və frezləmənin rejimindən asılı olan c-daimidir.

Nəticə: Həndəsi fiqurların ölçü vahidinin təhlili metodunun instrumental materialların kəsmə vasitələrinin təhlilinə tətbiqi göstərdi ki, sonuncunu əsasən eyni müqavimət dəyərinə uyğun olan frezləmənin sürəti ilə müqayisə etmək olar, eləcə də frezləmənin eyni sürətindəki sürtünmə və dağılma müqavimətinə görə, üstəlik sürtünmə və dağılma müqaviməti onun fasiləsiz iş vaxti, yəni sürtünmə və dağılmanın icazə verilən ölçüyə çatması müddəti ilə müəyyən olunur.

ƏDƏBİYYAT

1. Гасанов А.П. Аварийно-восстановительные работы в нефтяных и газовых скважинах М.Недра, 1987, - 182 с.
2. Джанахмедов А.Х., М.Н. Багирова. Трибомеханика режущей кромки скважинных фрезеров при проведении аварийно-восстановительных работ. Сб. Международного научно-практического симпознума «Славянтрибо-4. Трибология и технология», Санкт-Петербург, 1997, - 6 с.
3. Седов Л.И. Методы подобия и размерности в механике. М.Недра, 1972.-440 с.

RESEARCH OF WEAR DURING FRICTION OF THE CUTTING PART OF THE WEEL MILL

[1]Mehin Baghirova, [2]Farhad Guliyev

[1]Associate professor, Department of Oil and Gas Equipment, Azerbaijan State University of Oil and Industry, Candidate of Technical Sciences, Azerbaijan. E-mail: mehin.bagirova@mail.ru

[2]Master, Azerbaijan State University of Oil and Industry, Azerbaijan. E-mail: ferhad.quliyev1998@mail.ru

ABSTRACT

Depending on the severity of the accidents, repairs are carried out in the boreholes, mainly through the destruction of accident facilities. A widespread variation of this method is the continuous removal of a thin layer of metal shavings from an accident body, followed by the process of removing the crushed rock mass to the surface with a washing-cooling liquid called milling. Milling processes (for example, pump-compressor pipes, pump rods, etc.) are very complex in nature and are accompanied by a variety of physical phenomena, the mathematical description of which (especially the processes of friction and wear) is very difficult.
Keywords: milling, cutting process, dimensionless combination, limit torque.

https://doi.org/10.36962/ETM0602202173

EQUIPMENT, TECHNOLOGIES, MATERIALS

VOLUME 06 ISSUE 02 2021

MAYELƏRİN SÜRTÜNMƏ QANUNLARI İLƏ SÜZÜLMƏ QANUNLARININ ANALOGİYASI BARƏDƏ

Lalə Hacıyeva

Dosent, "Neft-qaz avadanlığı" kafedrası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Texnika elmləri namizədi, Azərbaycan. E-mail: lala.haciyeva51@mail.ru

XÜLASƏ

Məqalədə qeyd edilmişdir ki, təbiətdə reologiya elmində göstərildiyi kimi aşağıdakı müxtəlif xarakterli nyuton, qeyri-nyuton, özlü-plastik, dilatant və s. mayelər yayılmışdır. Bu mayelərin hər biri üçün sürtünmə qanunları, yəni nyutonun sürtünmə qanunu, Binqam Şvedovun sürtünmə qanunu, Maksvellin, Kessonun, Z.P.Şulmanın sürtünmə qanunları da təqdim edilmişdir. Bu qanunların bir qisminə tabe olan süzülmə qanunlar yəni, Darsi Ümumiləşdirilmiş Darsi qanunu da təqdim edilmişdir; digərləri üçün süzülmə qanunları isə məlum deyildirlər.
Məqalənin müəlliflərindən biri tərəfindən bir yeni ideya irəli sürülmüşdür, bunun mahiyyəti ondan ibarətdir ki, mayelərin sürtünmə və süzülmə qanunlarının müəyyən analogiyası mövcuddur və buna əsasən bütün süzülmə qanunlarını təyin etmək mümkündür.
Açar sözlər: sürtünmə qanunu, süzülmə qanunu, analogiya, nyutonun sürtünmə qanunu, Darsi süzülmə qanunu, Binqam Şvedovun sürtünmə qanunu, Ümumiləşdirilmiş Darsi süzülmə qanunu, Kessonun sürtünmə qanunu, Şulmanın sürtünmə qanunu.

Giriş: Məlumdur ki, təbiətdə müxtəlif xarakterli mayelər mövcuddurlar: bunlara aşağıdakıları misal göstərmək olar: nyuton mayesi, özlü-plastik maye, qeyri-nyuton maye, dilant maye və s. Bu mayelərin hər birinin yalnız özünə məxsus sürtünmə qanununu və süzülmə qanunu vardır. Mayenin müxtəlif kanallarda hərəkətini öyrənən elmə ümumi hidravlika, yaxud hidrodinamika deyilir. Bu kanallar aşağıdakılardır: silindrik boru, həmoxlu iki silindrik boru (müxtəlif diametrlilər arasındakı həlqəvi fəza, sərbəst səthli axına malik olan kənal və s.
MAyenin məsaməli mühitdə süzülmə prosesini öyrənən elmə süzülmə nəzəriyyəsi yaxud yeraltı hidravlika deyilir.
Maye hər hansı bir kanalda hərəkət edəndə, onun daxilində qonşu təbəqələr arasında sürtünmə qüvvələri yaranır ki, buna mayenin özlülüyü deyilir. Yüksək özlülüklü maye çətin hərəkət edir, onun sürtünmədən alınan təzyiq düşgüsü çox böyük olur. Onun hərəkətini yaxşılaşdırmaq məqsədilə onu istilik təsirilə qızdırmaq yaxud ona xüsusi həlledici-duruldcu reagent qarışdırmaq olar.
Maye hər hansı bir məsaməli mühitdə suxurda yaxud layda süzüləndə, onun süzülmə sürətinin qiyməti həm mayenin lay şəraitindəki özlülüyündən, həm də məsaməli mühitin keçiriciliyindən asılı olur. Mayenin özlülüyü yüksək olanda, onun süzülmə prosesi çətinləşir; məsaməli mühitin keçiriciliyi yüksək olduqda isə onun süzülmə prosesi yaxşılaşır. Neft mayesinin layda özlülüyünü aşağı salmaq məqsədilə onu layda qızdırırlar (quyu dibinə endirilmiş elektrik qızdırıcısı vasitəsilə) yaxud layın quyudibi zonasına karbohidrogen həlledici reagentini (qaz kondensatını) vururlar.
Layın keçiriciliyi əgər kiçik qiymətlidirsə, onda neftin süzülmə prosesi çətinləşir, yəni layın drenaj zonasında təzyiq düşgüsü artır. Layın keçiriciliyini artırmaq üçün, layın quyudibi zonasına hər hansı bir üsulla təsir edirlər. Müxtəlif konkret geoloji-fiziki şərait üçün müxtəlif

üsullar tətbiq edilirlər, məsələn, turşu ilə, termo-turşu təsir üsulları, layın hidravliki yarılması üsulu və s.
Maye hər hansı bir kanalda hərəkət edəndə, onun müxtəlif sürətlərlə hərəkət edən qonşu təbəqəcikləri arasında yaranan toxunan gərginliklə sürət qradiyenti arasındakı funksional asılılığın analitik ifadəsinə (düsturuna) mayenin sürtənmə qanunu deyilir.
Müxtəlif xarakterli mayelərn sürtünmə qanunları da müxtəlifdirlər.
Məsələn, nyuton mayesinin sürtünmə qanunu nyutonun sürtünmə qanunu adlanır və aşağıdakı kimi ifadə olunur:

$$\tau = \mu \frac{du}{dn}; \tag{1}$$

burada $\tau -$toxunan gərginlik; $\mu -$mayenin dinamik özlülüyü; $\frac{du}{dn}$ _ sürət qradiyentidir; $u-$ təbəqənin hərəkət sürəti; $n-$müxtəlif sürətlərlə hərəkət edən qonşu təbəciklər arasındakı məsafədir.
Özlü-plastik mayenin (məsələn, neftin) sürtünmə qanunu Binqam-Şvedov sürtünmə qanunu adlanır və aşağıdakı düsturla ifadə olunur:

$$\tau = \eta \frac{du}{dn} + \tau_0; \tag{2}$$

burada $\tau -$toxunan gərginlik; $\eta -$özlü-plastik mayenin struktur özlülüyü; $\frac{du}{dn}$ _ sürət qradiyenti; $u-$hərəkət sürəti; $n-$müxtəlif sürətlərlə hərəkət edən qonşu təbəqəciklər arasındakı məsafə; τ_0 $-$sürüşmənin başlanğıc gərginliyidir.
Tipoqrafik boyaların (şəm də bəzi anomal neftlərin) sürtünmə qanunu Kessonun iki parametrli sürtünmə qanunu adlanır və aşağıdakı kimi olur:

$$\tau^{\frac{1}{2}} = k_0 + k_1 \left(\frac{du}{dr} \right)^{\frac{1}{2}}, \tag{3}$$

burada $\tau -$toxunan gərginlik (sürüşmə gərginliyi); k_0 və k_1 $-$boya kompozisiyasının reoloji parametrləri; $\frac{du}{dn}$ $-$ sürət qradiyentidir; $u-$hərəkət sürəti; $r-$məsafədir.
Dekorativ və müdafiə boyalarının sürtünmə qanunu Z.P.Sulmanın sürtünmə qanunu adlanır və aşağıdakı tənliklə ifadə olunur:

$$\tau^{\frac{1}{n}} = \tau_0^{\frac{1}{n}} + \left(\mu_p \frac{du}{dr} \right)^{\frac{1}{n}}, \tag{4}$$

burada $n-$istənilən həqiqi müsbət ədəddir (tam olmağı vacib deyildir). n, τ_0, μ_p $-$ kəmiyyətlərinin qiymətləri boya kompozisiyasının hər biri üçün reoölçmə təcrübəsindən təyin edilirlər.
Özlülüyə, plastikliyə və elastikliyə malik olan mayenin sürtünmə qanunu Maksvellin ümumi sürtünmə qanunu adlanır və aşağıdakı kimi ifadə olunur:

$$\tau = \eta \frac{du}{dn} + \tau_0 e^{-\frac{t}{T}}, \tag{5}$$

burada $\tau -$toxunan gərginlik; $\eta -$struktur özlülük; $\frac{du}{dn}$ – sürət qradiyenti; τ_0 –sürüşmənin başlanğıc gərginliyi; $e -$natural loqarifmin əsası; $T -$gərginliyin relaksasiya (zəifləmə) müddəti, $t -$prosesin davametmə müddətidir.
Yuxarıda sürtünmə qanunları məlum olan mayelərin bir qisminin süzülmə qanunları da məlumdurlar, digərlərinin ki, isə hələ məlum deyildir.
Aşağıda məlum olan süzülmə qanunları təqdim edilmişdirlər. Süzülmə sürətilə təzyiq qradiyenti arasındakı funksional asılılığın analitik ifadəsinə mayenin məsaməli mühitdə süzülmə qanunu deyilir.
Xətti Darsi süzülmə qanunu nyuton mayesi süzülmə prosesinin tabe olduğu bir parametrli qanundur, bu qanun aşağıdakı diferensial şəkillərdə ifadə olunur:
–yastı-paralel süzülmə axını üçün:

$$\upsilon = -\frac{k}{\mu}\frac{dP}{dx}; \tag{6}$$

–radial (yastı-radial və yarımsferik-radial) süzülmə axınları üçün:

$$\upsilon = \frac{k}{\mu}\frac{dP}{dr}; \tag{7}$$

burada $\upsilon -$mayenin məsaməli mühitdə süzülmə sürəti; $k -$süxurun (yaxud layın) keçiricilik əmsalı, $\mu -$mayenin (məsələn neftin) lay şəraitində dinamik özlülüyü; $\frac{dP}{dx}$ və $\frac{dP}{dr}$ –təzyiq qradiyentləridir; mənfi (–) işarəsi onu göstərir ki, yastı-paralel axında fəza koordinatı $x -$in (absisin) artması ilə təzyiq azalır; $r -$radius-vektorudur.
Ümumiləşdirilmiş Darsi süzülmə qanunu özlü-plastik mayesi süzülmə prosesinin tabe olduğu iki parametrli qanundur və aşağıdakı şəkillərdə ifadə olunur:
–yastı-paralel süzülmə axını üçün:

$$\upsilon = -\frac{k}{\eta}\left(\frac{dP}{dx} - G\right); \tag{8}$$

–radial (yastı-radial və yarımsferik-radial) süzülmə axınları üçün:

$$\upsilon = \frac{k}{\eta}\left(\frac{dP}{dr} - G\right); \tag{9}$$

burada $\eta -$mayenin (neftin) lay şəraitində struktur özlülüyü; $G -$başlanğıc təzyiq qradiyentidir.
Qalan (3) (4) və (5) nömrələrlə işarə olunan sürtünmə qanunlarına tabe olan anomal maylərin süzülmə qanunları hələ məlum deyildir.
Bu mayelərin müəlliflərindən biri tərəfindən müəyyən təhlillər və araşdırmalar aparıldıqdan sonra yeni bir ideya irəli sürülmüşdür. Bu ideyanın mahiyyəti aşağıdakılardan ibarətdir, hər bir mayen in sürtünmə qanunu və süzülmə qanunu arasında müəyyən analogiya mövcuddur və bu analogiyadan istifadə etməklə, mayenin süzülmə qanununu təyin etmək mümkündür və

beləliklə hidrodinamika elmində yeni nəzəri işlənmə məsələlərinin həll edilməsi üçün çox geniş imkanlar yaranır.
Məqalənin müəllifləri tərəfindən Kessonun, Z.P.Şulmanın və Maksvellin sürtünmə qanunlarına tabe olan mayelər üçün süzülmə qanunları qeyd edilmiş anomaliyadan istifadə etməklə süzülmə qanunları aşağıdakı şəkillərdə əldə edilmişdir:

$$\upsilon = C\left[\left(-\frac{dP}{dr}\right)^{\frac{1}{2}} - G^{\frac{1}{2}}\right]^2, \tag{10}$$

$$\upsilon = C\left[\left(-\frac{dP}{dr}\right)^{\frac{1}{n}} - G^{\frac{1}{n}}\right]^2, \tag{11}$$

$$\upsilon = C\left(\frac{dP}{dr} + Ge^{-\frac{t}{T}}\right). \tag{12}$$

Bu düsturlar vasitəsilə də bir çox yataqların nəzəri işlənmə məsələlərini həll etmək olar.

Nəticə və təkliflər: Məqalədə reologiya elmində aparılmış tədqiqatlara əsasən təbiətdə yayılmış müxtəlif xarakterli mayelərin nyuton, qeyri-nyuton, özlü-plastik, dilatant və s xarakterli mayelərin yayılması və onların müxtəlif texnoloji proseslərin aparılmasında istifadə olunması barədə şərh edilmişdir.
Həmin mayelərin sürtünmə qanunlarının diferensial formada analitik ifadələri təqdim edilmişdir.
Bu mayelərin bir qismi üçün onların məsaməli mühitdə (süxurda yaxud layda) süzülmə qanunları diferensial şəkildə təqdim edilmişdir.
Digər xarakterli mayelər üçün süzülmə qanunları məlum olmadığından, onlar təqdim olunmamışdır.
Məqalənin həmmüəlliflərindən biri tərəfindən bir yeni ideya irəli sürülmüşdür, hansının mahiyyəti bundan ibarətdir: hər hansı mayenin sürtünmə və süzülmə qanunlarının hər hansı bir anomaliyası mövcuddur.
Bu anomaliyadan istifadə edərək, mayenin sürtünmə qanunundan onun süzülmə qanununu təyin etmək mümkündür. Bu anomaliyadan istifadə edərək modifikasiya olunmuş Kesson modeli (süzülmə qanunu), modifikasiya olunmuş Z.P.Şulman modeli (süzülmə qanunu), (lak-boya və tipoqrafiya boyası üçün) və Maksvelin üç parametrli modeli (süzülmə qanunu) təyin edilmişdir.
Yeni təyin edilmiş süzülmə qanunları ilə bəzi neft yataqlarının bir çox nəzəri işlənmə məsələlərini həll etmək mümkündür.

ƏDƏBİYYAT

1. Щелкачев В.Н., Лапук Б.Б. Подземная гидравлика. Гостоптехиздат. Москва 1949, 523 стр.
2. Тепло- и массоперенос. Том III. Тепло – и массоперенос в реологических системах. Под общей редакцией академика АН БССР А.В.Лыков и чл.корр.АН БССР Б.М.Смольского Изд.Наука и техника, Минск 1968, 363 стр.
3. Пыхачев Г.Б. Подземная гидравлика. Гостоптехиздат, Москва, 1961, стр.120-127.
4. Пыхачев Г.Б. Подземная гидравлика. Гостоптехиздат, Москва, 1972, стр.44-59.

ABOUT ANALOGY OF THE LAWS OF FRICTION AND FILTRATION OF LIQUIDS

Lala Haciyeva

Assistant professor, chair “Oil-qaz equipment”, Azerbaijan State Oil and Industry University, Doctor of Philosophy in Engineering Sciences, Azerbaijan. E-mail: lala.haciyeva51@mail.ru

ABSTRACT

The article states that the following fluids of various nature are widespread in nature, which were determined as a result of experimental research in the science of rheology: Newtonian, non-Newtonian, viscous-plastic, dilatant and other fluids. For each of these fluids, the laws of friction are also presented, that is, Newton's law of friction, Bingham-Shvedov's law of friction, Maxwell's, Sesson's, Z.P.Shulman's laws of friction. Filtration laws were also introduced, which obey some of these laws, that is, the Generalized Course Law; for others, the laws of filtration are unknown. One of the co-authors of the article promoted a new idea that the laws of friction and the laws of filtration of liquids have a certain analogy and using it, on the basis of the law of friction of a liquid, one can determine the law of filtration of the same liquid.

Keywords: law of friction, law of filtration, analogy, Newton's law of friction, Darcy's law of filtration, Bingham-Shvedov's law of friction, generalized Darcy's filtration law, Caesson's filtration law, Z.P. Shulman's filtration law.

https://doi.org/10.36962/ETM0602202176

РАЗРАБОТКА СОСТАВА МАТЕРИАЛОВ И СПОСОБЫ ПОЛУЧЕНИЯ ИЗ НИХ УПЛОТНИТЕЛЕЙ ДЛЯ УЗЛОВ НАСОСОВ

Афет Джафарова

Старший преподаватель, кафедры: “Химическая технология, переработка и экология” Азербайджанского Технического Университета, доктор философии по технике, Азербайджан. E-mail: afetceferova8gmail.com

РЕЗЮМЕ

В статье рассматривается железо-чугунный порошковый композиционный материал для изготовления уплотнителей, используемых в узлах трения насосов. Подчеркнута необходимость выбора порошка специального чугуна при получении таких типов композитов. В качестве такого чугунного порошка был выбран специальный серый чугун с междендритным точечным графитом. Представлены химический состав и свойства специального чугуна, а также пяти шихт порошковых композитов, полученных холодным прессованием и спеканием для уплотнителей нососов. Омечено что, так как уплотнители должны обладать специальной герметичностью, спеченные железо-чугунные композиты необходимо подвергать последующему уплотнению.
Ключевые слова: железо-чугун, композиция, междендритный точечный графит, перлит, химический состав, прочность, порошковая шихта.

XÜLASƏ

Məqalədə nasosların sürtünmə qovşaqlarında istifadə olunan kipləndiricilərin hazırlanması üçün dəmir-çuqun ovuntu kompozisiya materialına baxılır. Bu tip kompozitlərin alınmasında xüsusi çuqunun ovuntusunun seçilməsinin zəruriyyəti qeyd olunmuşdur. Belə çuqun ovuntusu kimi dendritlərarası nöqtəvi qrafitli xüsusi boz çuqun seçilmişdir. Xüsusi çuqunun kimyəvi tərkibi və xassələri, habelə nasos kipləndiriciləri üçün soyuq presləmə və bişirmə ilə alınan ovuntu kompozitlərinin beş şixtəsi təqdim olunmuşdur. Qeyd olunur ki, kipləndiricilər xüsusi hermetikliyə malik olduqlarına görə dəmir-çuqun kompozitlərini sonrakı sıxlaşdırmaya uğratmaq lazımdır.
Açar sözlər: dəmir-çuqun, dentritlərarası nöqtəvi qrafit, perlit, kimyəvi tərkib, möhkəmlik, ovuntu şixtəsi.

Введение: Литературный анализ [1-3] показывает, что цветные металлы и их сплавы а также материалы на основе полимеров и других неметаллов, рекомендуемые для узлов трения, дорогостоящие и не очень подходят при производстве процесса уплотнителей насосов. Хотя порошковые материалы на основе железа, особенно железографиты технологичны и не очень дорогостоящие, но они ненадежно работают в тяжелых условиях эксплуатации уплотнителей.


Поэтому для уплотнителей важно использовать новые композиционные материалы, которые могут работать в более тяжелых условиях и являются экономически выгодными. Анализ известной литературы с этой целью показывает, что больший интерес представляют разработанные автором [4] композиционные материалы “железо-

чугун”. В данной работе рекомендуется использование порошковой шихты “железо-чугун" для создания антифрикционных материалов с гетерогенной структурой. В качестве порошка чугуна был выбран порошок специального чугуна с междендритным точечным графитом. Распределение графита в матрице этого чугуна в виде точечных включений делает его очень ценным материалом для узлов трения.

Обсуждение результатов исследования: Микроструктура специального чугуна в исходном состоянии представлена на рисунке 1. Химический состав, твердость и микроструктура этого чугуна также представлены на рисунке.

Распределение графита в виде точек между дендритами может повысить герметичность порошкового изделия при работе его в насосных узлах высокого давления, хотя по прочностным свойствам такой чугун уступает другим чугунам.

Для получения уплотнителей были приготовлены шихты “железо-чугун” в пяти составах. Был взят порошок железа по ГОСТу 9849-86 стандартной маркой ПЖ2.200.26. Свойства уплотнителей, полученных холодным прессованием и спеканием шихты “железо-чугун” даны в таблице. В данном случае давление холодного прессования составляет 1000 МПа а температура спекания в среде эндогаза – 1150º С.



а б

Рисунке 1. Микроструктура специального чугуна:
а) – состояние графита ×100; б) – матрица × 400:
1) химический состав - количество элементов в массе%:
C2,0-3,0; Si 2,5-3,8; Mn 0,4-0,9; P≤0,03; S≤0,1
2) твердость,МПа:1660-2410;
3) микроструктура - междендритный точечный графит + матрица-перлит или перлит-феррит.

Свойства порошковых уплотнителей в зависимости от количества порошка чугуна в шихте

Таблица 1

Количество порошка чугуна в шихте, масс %	Относительная плотность	Предел прочности, МПа	Ударная вязкость, КС/м^2	При Р = 2МПа, V = 1 м/с Интенсивность изнашивания, мкм/км
10	92,6	210	480	69
20	92,0	225	500	62
30	91,4	195	580	50
40	90,9	185	450	48
50	90,7	245	340	45

Отметим что, используемый порошок чугуна был получен путем измельчения выше упомянутой чугунной стружки в шаровой мельнице.

Размер частиц порошка чугуна, используемых в шихте, составлял ≤ 200мкм.


Надо учитывать, что максимальное использование чугунного порошка в шихте экономически целесообразно и играет важную роль в формировании антифрикционных свойств уплотнителей. Однако отсутствие пластичности чугунного порошка ограничивает его использование в шихте в больших количествах. Поэтому мы рекомендовали использовать шихты “железо-чугун”, состав которых содержит в основном 20% и 50% порошка чугуна, остальное – порошок железа.

На рисунке 2. представлена микроструктура железочугунных композитов, содержащих 20 (а, б) и 50 (с, д) массы (в %) порошка чугуна в шихте.


Следует отметить, что предложенные оба состава обладали высокими механическими свойствами и износостойкостью (см. таблицу).




а



б



с



д

Рис.2 Микроструктуры композитов ‘’железо-чугун’’ x400:
а, с – состояние графита; б, д – матрица

Как видно из рисунков, междендритный точечный графит сохраняет свою точечную форму в структуре обоих составов. Такое состояние может позволить этим композитам хорошо работать в уплотнителях. То есть равномерное распределение точечного графита между частицами обеспечивает надежную работу уплотнителя при сухой и граничной смазке.

Надо отметить, что уплотнители насосов работают в условиях высоких скоростей и граничного трения. При трении в режиме граничной смазки жидкостная пленка смазочного материала не разделяет трущиеся поверхности, а способность твердой смазки (в нашем случае точечного графита) позволяет снижать трение и износ, и препятствовать заеданию. Трибосопряжения определяют его способность образовывать на рабочих поверхностях прочные граничные слои адсорбированного или химического происхождения, обладающие пониженным сопративлением сдвигу по сравнению с основным металлом.

Трение в условиях участия графита (т.е. при трении граничной смазки) определяет также склонность контактирующих материалов к схватыванию на ряде фактических микроконтактах по вершинам отдельных микронеровностей, на которых может быть разрушен граничный слой смазки. При этом наличие точечного графита в структуре порошкового композита препятствует разрушению граничного слоя, т.е. образованию сухого трения между трущимися поверхностями.

Однако необходимо учитывать, что уплотнители должны обладать исключительной герметичностью. Обеспечение герметичности продукта технологией холодного прессования и спекания является проблемой. При этом предлагаемые композиты имеют два компонента, и каждый компонент имеет свои свойства в прессовке. Поэтому следующий этап исследований по получению уплотнителей будет посвящен теоретическому обоснованию процессов уплотнения такой шихты, состоящей из упруго-пластичной среды.

Выводы: Выбран порошок специального чугуна с междендритным точечным графитом при изготовлении железочугунных композитов для уплотнителей насосов и предложены параметры технологии получения из них изделий путем холодного

прессования шихты и спекания прессовок. В качестве материала шихты были взяты порошки железа и чугуна в соотношении 5:1 и 1:5 .

ЛИТЕРАТУРЫ

1. AdelArthur.Perspektiv in powder metallurgy, Fundamentals//Methods and applications/vol 4/Friction and antifriction materials. Sinteredbearing. New York-London, plenum press.2007,p.263-271.
2. ГодесА.И.Порошковая металлургия в современной отечественной и зарубежной промышленности / В сб. "Порошковая металлургия", Рига, 2006, с.5-24.
3. Воронков Б.Д. Подшипники сухого трения. Л: "Машиностроение" 2007, 24 с.
4. Мамедов А.Т. Конструкционные и антифрикционные порошковые материалы. Баку, Элм, 2005, 458 с.

DETERMINATION OF THE COMPOSITION OF MATERIALS FOR SEALS OF PUMP UNITS AND METHODS OF OBTAINING PRODUCTS FROM THEM

Afet Jafarova

Senior Lecturer, Department of "Chemical Technology,Processing and Ecology", Technical University of Azerbaijan, Doctor of Philosophy in Engineering, Azerbaijan. E-mail: afetceferova8@gmail.com

ABSTRACT

Determination of the composition of materials and methods of obtaining products from them for seals of pumping units. A powder composite material "iron-cast iron" is proposed for the manufacture of seals used in friction units of pumps. The necessity of choosing cast iron powder for obtaining compositions of this type is shown. As a powder of cast iron,a special gray cast iron with interdendritic point graphite is proposed. The cremical composition, properties of gray cast iron and the properties of powder compositions obtained by cold pressing and sintering from five charge compositions. It is noted that due to the fact that the seals must have special tightness, they must be subjected to subsequent compaction.
Keywords: iron-castiron, composition, interdendritic point graphite, pearlite, chemical composition, strength, powder charge.

https://doi.org/10.36962/ETM0602202181

EQUIPMENT, TECHNOLOGIES, MATERIALS

VOLUME 06 ISSUE 02 2021

OPTIMAL DESIGN OF HEAT EXCHANGER NETWORK IN OIL REFINERIES

[1]Natig Abbasov, [2]Ziyaddin Ziyaddinli

[1]Assistant, "Oil and gas equipment" Department, Azerbaijan State Oil and Industry University, Candidate of technical sciences, Azerbaijan. E-mail: natig.abbasov@asoiu.edu.az

[2]Magistr, "Oil and gas equipment" Department, Azerbaijan State Oil and Industry University, Azerbaijan. E-mail: zziyaddin@gmail.com

ABSTRACT

The performance of the heat exchanger network (HEN) in a plant is an important aspect of energy conservation. “Pinch” technology and mathematical programming techniques offer an effective and practical method for designing the HEN for new and retrofit projects. The fluid catalytic cracking (FCC) is a dominant process in oil refineries and there has been a sustained effort to improve the efficiency and yield of the unit over the years. HEN optimal design in FCC process is an essential element in reducing the cost and improving the process as a whole. The objective of this work is to introduce a systematic procedure for designing optimal and flexible FCC-HEN that incorporates variations in feed flow rates and specs and on same time considers different schedules imposed on the process.
Keywords: heat exchangers, fluid catalytic cracking, design of network, oil refinery, heat recovery systems

Introduction: Fluid catalytic cracking (FCC) is an important process in oil refineries. It converts atmospheric gas oil, vacuum gas oils, certain atmospheric residues and heavy stock recovered from other refinery operations into high-octane gasoline, light fuel oils and olefin rich light gases. Heat exchanger network (HEN) in FCC process can be optimized using pinch technology, mathematical programming, combination of both or stochastic methods [1].
There are two ways for considering HEN design which are based on either sequential or simultaneous approaches. The sequential approaches are taking in consideration fixed supply and target temperatures while the simultaneous approaches are considering other design aspects simultaneously with the optimal design of HEN [2].
Over the past 30 years, significant research contributions have been made in developing design techniques for the synthesis of heat exchange networks (HENs) in general. Much of this work has focused on heat integration as the overarching goals with objectives such as minimizing heating and cooling utilities and total annualized cost of the network.
On the other hand, much less work has been done in the area of reconciling heat integration with other process objectives. Mathematical programming techniques have been effectively used to address several important categories of HENs. In an attempt to exploit the interactions between the process operating conditions (i.e. stream temperatures and flowrates) and the heat recovery network, Papoulias and Grossmann (1983) developed a strategy for simultaneous optimization of the process and heat integration based on mixed integer linear programming (MILP). This approach allows the flowrates to vary as part of optimizing the process and the associated network of heat exchangers. In order to avoid nonlinear terms in the formulation,

fixed temperature intervals are defined. Duran and Grossmann (1986) introduced a mathematical approach for the optimization of heat exchange networks where the supply and target temperatures are allowed to vary.
Mathematical constraints are introduced to account for the unknown temperature and to locate candidate and true pinch points, thereby ensuring that the final flowsheet will feature the minimum utility target. According to this approach, bounds on the energy requirements of the process are explicitly included within the synthesis problem; however, the structure and overall cost of the heat recovery system are not traded off with process costs.
Grossmann et al. (1998) developed another method for the simultaneous optimization of flowsheet and heat integration. It is based on introducing integer variables that give a general formulation for heat loads and composite curves [3-5]. Yee et al. (1990) proposed a structural optimization model, where process alternatives are optimized simultaneously with the heat exchanger network that accommodates the heating and cooling requirements of the process streams. They introduced a superstructure representation which included many possible flowsheet alternatives [4]. However, the number of variables and constraints that are needed to produce the required mathematical representations may be large. Thus, simplifying assumptions may be required.

Scope: Since the scope of this work is related to oil refineries, there are attempts designing HEN for various units in oil refinery. Some of these consider design or retrofitting for HEN in crude distillation or cracking units. Querzoli et al. (2003) reviewed the actual heat integration performance of the existing crude distillation unit (CDU) and residual cracking unit (RCU) of refining processes and identified potential areas for improvement. They developed retrofit designs and operating strategies to increase heat integration also determine the economics of the retrofit designs to assess if any of the options are commercially attractive.
Fraser and Gillespie studied the energy integration on the whole oil refinery where they identified potential energy savings in the plant. It is mainly feasibility study rather than actual retrofitting of existing HEN of the oil refinery. The contribution of Al-Riyami et al (2001), which is interestingly enough study on FCC-HEN. They used pinch analysis for the retrofit designs of FCC. The retrofit objective was to improve energy recovery and performance of the existing network [6].
